RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 257 (8850) ŞƏNBƏ, 27 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Prezident İlham Əliyevin Soçi şəhərinə işgüzar səfəri



## Soçi Beynəlxalq Hava Limanında qarşılanma

**Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasının Soçi şəhərində işgüzar səfərdə olub.**

## Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlığa əsaslanır

**Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi salamlayan Prezident **Vladimir PUTİN** dedi:

- Hər vaxtınız xeyir, hörmətli İlham Heydər oğlu. Sağ olun ki, gəlməyə razılıq verdiniz. Çoxlu suallar yığılıb qalıb. Əlbəttə, Dağlıq Qarabağ probleminin nizamlanması ilə əlaqədar bizim üçtərəfli görüşümüz diqqət mərkəzində olacaq. Mən indicə öz həmkarlarımla - Sizin yaxşı tanıdığınız və iqtisadiyyat problemləri, nəqliyyat dəhlizlərinin açılması məsələləri ilə məşğul olan Rusiya hökumətinin Baş nazirinin müavini, müdafiə naziri, məlum olduğu kimi,



nizamlanma işinə əhəmiyyətli töhfə verən Sərhəd Xidmətinin tabe olduğu Federal Təhlükəsizlik Xidmətinin direktoru ilə söhbət edirdim.

Ümumiyyətlə, orada suallar çoxdur, lakin hər halda bizim ikitərəfli görüşümüzü ondan başlamaq istərdim ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 30 illiyi tamam olur. Şübhəsiz, bu elə bir hadisədir ki, onu müvafiq şəkildə qeyd etməli olacağıq. Bununla əlaqədar demək istərdim ki, bizim strateji tərəfdaşlığımız çox uğurla inkişaf edir. Bunu demək kifayətdir ki, pandemiya ilə bağlı bütün məsələlərə və bununla əlaqədar iqtisadiyyatda məhdudiyyətlərə baxmayaraq, hər halda bu ilin 9 ayı ərzində bizdə əmtəə dövriyyəsinin həcmi 11 faiz artıb.

Ardı 2-ci səh.

# Azərbaycan ötən il ərzində maksimum konstruktivlik nümayiş etdirib

### Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib

**Noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir PUTİN** dedi:

- Hörmətli həmkarlar, dostlar.

İlk növbədə, sizə təşəkkür etmək istərdim ki, mənim dəvətimə cavab verməyi və atəşkəs haqqında bəyanat qəbul ediləndən sonra bir il ərzində görülmüş işə müəyyən yekun vurmaq üçün Rusiyaya gəlməyi mümkün hesab etmisiniz. Sonra biz artıq cari ilin yanvarında atəşkəs və normal həyatın bərpa edilməsi haqqında razılaşmalarımızı təsdiq etdik. Bu müddətdə, həqiqətən, az iş görülməyib.

Əfsuslar olsun ki, məsələlərin hamısı hələ də nizamlanmayıb.



Sərhəddə baş verən insidentlərdən, faciəli insidentlərdən, hər iki tərəfdən insanların həlak olmasından və yaralanmasından xəbərim var. Bütün bunlar bizim tərəfimizdən xüsusi diqqət tələb edir. Əslində, biz sizinlə bu gün onun üçün toplaşmışıq ki, gələcəkdə buna bənzər insidentlər baş verməsin.

Lakin bütövlükdə il ərzində az iş görülməyib. Birincisi, heç bir irimiqyaslı döyüş əməliyyatları baş vermir, bu da özlüyündə çox yaxşı haldır. Bu müddət ərzində və bizim tərəfin köməyi ilə qaçqınların qaytarılması ilə bağlı böyük iş aparılıb, 53 min insan daimi yaşayış yerlərinə qayıdıb. Yaxşı monitorinq qrupu yaradılıb, bizim kontingent fəaliyyət göstərir, hər iki tərəfin dəyərləndirməsindən belə başa düşürəm ki, layiqincə işləyir, insanların həyatı üçün təhlükəsiz şərait təmin edir.

Ardı 2-ci səh.

## Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər



Bax: səh. 3

## Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin BƏYANATI

**26 noyabr 2021-ci il**

“Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2021-ci il noyabrın 26-da Soçi şəhərində görüşdük və Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tamamilə dayandırılması haqqında 2020-ci il 9 noyabr tarixli Bəyanatın, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişini müzakirə etdik.

Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduğumuzu təsdiq etdik. 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlardan irəli gələn, həllini gözləyən məsələlərin tezliklə həllinə yönəlmiş birgə səyləri fəallaşdırmaq barədə razılığa gəldik.

Regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsinə Rusiya sülhməramlı kontingentinin mühüm töhfəsini qeyd etdik.

Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşdik.

2021-ci il 11 yanvar tarixli Bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdik. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladıq.

Rusiya Federasiyası Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması, Azərbaycan və erməni xalqları arasında etimad mühitinin formalaşması, habelə regionda mehriban qonşuluq münasibətlərinin bərqərar olması məqsədilə bundan sonra da zəruri olan hər cür köməyi göstərəcək”.

**Azərbaycan Respublikasının Prezidenti**
**İ.H.Əliyev**

**Ermənistan Respublikasının baş naziri**
**N.V.Paşinyan**

**Rusiya Federasiyasının Prezidenti**
**V.V.Putin**

## Prezident İlham Əliyevin Soçi şəhərinə işgüzar səfəri başa çatıb



**Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri başa çatıb.**

# Prezident İlham Əliyevin Soçi şəhərinə işgüzar səfəri

## Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlığa əsaslanır

*Əvvəli 1-ci səh.*

Bu, yaxşı göstəricidir. Rusiyanın 900 müəssisəsi Azərbaycanda işləyir. Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 4,5 milyard dollar birbaşa investisiya qoyulub. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biridir. Əlbəttə, humanitar əlaqələr bu fonda davam edir. Mən bizim görüşlərimizdə həmişə, ilk növbədə, bu barədə danışıram. Rus dilinin inkişafına, dəstəklənməsinə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istəyirəm. Sizdə 304, hətta mən bilən daha çox - 340 məktəbdə rus dili tədris edilir. Azərbaycan məktəblilərinin 34 faizi bu və ya digər şəkildə rus dilində oxuyur və bu dili öyrənirlər. Bu da yaxşı göstəricidir, Azərbaycan rəhbərliyinin, Azərbaycan xalqının yaxın və çoxtərəfli əlaqələr saxlamaq cəhdinə dəlalət edir. Bu əlaqələr, həqiqətən, çoxtərəfli xarakter daşıyır. Humanitar sahədə münasibətlər də, gənclərin əlaqələri də inkişaf edir. Bizdə bu cür ümumbəşəri səviyyədə dəstəklənən tədbirlər çoxdur. Bu, gələcəkdə münasibətlərimizin inkişafı üçün yaxşı şərait yaradır.

Dağlıq Qarabağ məsələsinin nizamlanmasına gəldikdə isə, bu barədə üçtərəfli formatda danışarıq. Bir azdan Ermənistanın baş naziri bizə qoşulacaq və biz bu diskussiyanı davam etdirəcəyik. Lakin mənə belə gəlir ki, burada bizim sülhməramlılar da müsbət rol oynayırlar. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəal iş aparır. Təəssüf ki, problemlər, insidentlər var. Təəssüf ki, hələ də insan tələfatı olur. Biz də bundan ötrü toplaşmışıq ki, baxaq, nəinki buna oxşar heç bir hadisənin baş verməməsi, əksinə, vəziyyətin sakitləşməsi və regionda insanların rahat yaşamasına, ölkələrin inkişaf etməsinə imkan verəcək şərait yaradılması üçün nə edilib və hamı nə etməlidir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, dəvətə görə sağ olun. Yenidən görüşməyimizə şadam. Bu il ərzində biz çox fəal dialoq aparmışıq - həm görüşmüşük, həm də tez-tez telefonla danışmışıq. İkitərəfli münasibətlərimizin inkişaf dinamikası bizi çox sevindirir. Lakin mən əvvəlcə Kemerovo vilayətində kömür şaxtasında baş vermiş faciə ilə əlaqədar Sizə şəxsən başsağlığı vermək istərdim. Təəssüf ki, xeyli insan



həlak olub. Dünən Sizə teleqram göndərmişəm. Bu gün Azərbaycan xalqı adından bir daha Sizə, bütün Rusiya xalqına başsağlığı vermək istəyirəm.

Biz ikitərəfli formatda çox məsələləri həll etmişik və bu gün münasibətlərimizi strateji tərəfdaşların münasibətləri kimi səciyyələndiririk. Bu, sadəcə, söz birləşməsi deyil, həqiqətən, belədir və bütün istiqamətlər üzrə qarşılıqlı münasibətlərimizin səviyyəsini daha da yüksəltmək əzmindəyik. Sizin qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi artır. İqtisadi sahədə əməkdaşlığa, o cümlədən biznes dairələri arasında qarşılıqlı maraq çox güclüdür. Əlbəttə, münasibətlərimizin çoxlu sahələri ehtiva etməsi bizi çox sevindirir. Hazırda biz iqtisadiyyatın, nəqliyyatın əksər sahələrinə, humanitar əməkdaşlığa aid 7 yol xəritəsini reallaşdırırıq.

Azərbaycanda rus dilinin, o cümlədən təhsil prosesləri vasitəsilə populyarlaşdırılması və qorunub saxlanması üzrə bizim fəaliyyətimizi qiymətləndirdiyinizə görə sağ olun. Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, Azərbaycan tələbələrinin Rusiyada təhsil almaları üçün gözəl şərait yaradılıb. Bu səfərdən əvvəl son məlumatları gözdən keçirdim, 15 mindən çox azərbaycanlı, Azərbaycan vətəndaşı Rusiyanın ali məktəblərində təhsil alır. Əslində, bu, bütöv bir ali məktəb deməkdir. Burada çox yaxşı təhsil verilir və bu, avtomatik olaraq ölkələrimiz arasında körpü olur. Bizim münasibətlərimizin inkişafı işində bu həftə çox əlamətdar olub. Mən bu həftə Rusiya Federasiyası hökumətinin sədrinin müavinini qəbul etmişəm, dünən axşam Rusiya Elmlər Akademiyasının prezidentini qəbul etdim. Sizin humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəniz Azərbaycanın və Ermənistanın intellektualları, mədəniyyət xadimləri arasında Rusiya tərəfinin fəal iştirakı ilə əlaqələrin nizamlanması kimi çox mühüm bir missiya ilə bütün həftə ərzində Bakıda olub. Bu günlərdə, bu həftə Rusiyanın ixrac mərkəzi və "Roseksimbank"ın böyük biznes konfransı keçirilib. Bu konfransda Rusiyanın 30-dan çox şirkəti iştirak edirdi. Yəni bu, bir həftə bizim qarşılıqlı fəaliyyətimizin istiqamətlərinin yalnız bir hissəsini səciyyələndirmək üçün kifayət qədər əlamətdardır.

Əlbəttə, bu gün biz Ermənistan-Azərbaycan problematikası barədə ətraflı söhbət edəcəyik. Qeyd etməliyəm ki, keçən il noyabrın 10-dan etibarən Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətə başlaması ilə əlaqədar o vaxtdan bəri bir il ərzində Rusiya sülhməramlılarının məsuliyyəti zonasında ciddi insidentlər olmayıb. Silahlı toqquşmalar olmayıb, hər hansı ciddi hadisələr olmayıb, sistemli böhran xarakteri daşımayan müəyyən təsadüfi insidentlər olub. Azərbaycan və Ermənistan sərhədində silahlı toqquşmalar olub, lakin bu, Rusiya sülhməramlılarının məsuliyyət zonası deyil. Bununla belə, əlbəttə, bu, bizi bütün bunlara çox diqqətlə yanaşmağa, risklərə necə nəzarət etmək, onları necə minimallaşdırmağın mümkün olması barədə, o cümlədən üçtərəfli formatda söhbət aparmağa və Ermənistan-Azərbaycan münasibətlərinin hərtərəfli nizamlanması üzərində işləməyə vadar edir. Biz bu məsələdə şəxsən Sizin rolunuzu, Rusiya Federasiya hökumətinin yüksəkvəzifəli nümayəndələrinin rolunu və əlbəttə, Qarabağda sülhün saxlanması üçün Rusiya sülhməramlılarının rolunu çox yüksək qiymətləndiririk və ümid edirik ki, gələn il bu iş davam etdiriləcək və yenə yaxşı nəticələr alınacaq.

Dəvət üçün bir daha çox sağ olun, təkcə Rusiyanın deyil, bütün dünyanın incisi olan bu diyarın gözəl təbiətinə heyran olduğumu bir daha bildirmək istərdim.

**Vladimir PUTİN:** Çox sağ olun.

## Azərbaycan ötən il ərzində maksimum konstruktivlik nümayiş etdirib

### Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib

*Əvvəli 1-ci səh.*

Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəaliyyət göstərir. Ən əsası odur ki, gələcəkdə normal dinc həyat üçün şərait yaradılır. Bu, çox vacibdir.

Ermənistan, Azərbaycan və Rusiya hökumətlərinin Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiya yaradılıb. Mənim həmkarlarım işin necə getməsi barədə məruzə etdilər. Asan deyil. Lakin buna baxmayaraq, bu iş irəliləmə vəziyyətindədir və elə düşünməyə əsas var ki, yaxın vaxtlarda biz nəqliyyat kommunikasiyalarının işə salınması üzrə müvafiq qrupun işini nəinki təsdiqləyəcək, həm də hamı üçün uyğun zəruri tədbirlər görəcəyik.

Mənə elə gəlir ki, bütün səylərimizin məqsədi bundan ibarətdir, yəni regionun dirçəldilməsi üçün şəraitin yaradılması, insanların orada özlərini təhlükəsiz hiss etmələri və təsərrüfat fəaliyyəti ilə normal məşğul olmaları, iqtisadiyyatı inkişaf etdirə bilmələri üçün bütün bunlar, sözsüz ki, hər iki ölkənin vətəndaşlarının həyat səviyyəsində ən əlverişli şəkildə əksini tapmalıdır.

Ermənistan və Azərbaycan ilə münasibətlərin xüsusi xarakterini nəzərə alsaq, bu, Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Biz yüzilliklər boyu vahid dövlətin tərkibində olmuşuq, bizim çox dərin tarixi əlaqələrimiz var. Bu əlaqələrin kəsilməsini istəməzdik. Əksinə, biz onları bərpa etməyə və gələcəkdə də dəstəkləməyə səy göstərməliyik.

Əvvəldə mənim demək istədiklərim bunlardır.

Biz indi İlham Heydər oğlu ilə birgə işlərin gedişində razılaşdırmalı olacağımız məsələləri qabaqcadan müzakirə etdik. Ermənistan tərəfi ilə biz bunu qabaqcadan, vaxtında etmişik, Ermənistanın baş naziri ilə son vaxtlar dəfələrlə bu barədə danışmışıq. İndi görüş yerinə gələndə də bu barədə fikirlərimizi bölüşdük. Bizim üçtərəfli görüşümüzdən sonra Nikol Vovayeviç qalacaq, biz hələ onunla ikitərəfli görüş də keçirəcəyik.

Görüşümüzün əvvəlində mənim demək istədiklərim bunlardır. Əgər görüşümüzün əvvəlində həmkarlarımın deməyə sözü və istəyi varsa, buyursunlar.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham ƏLİYEV:** Dəvət üçün çox sağ olun, Vladimir Vladimiroviç. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması məsələsində Sizin şəxsi iştirakınızı və əlbəttə, keçən il Bəyanatın



mətninin razılaşdırılması işində fəal iştirakınızı Azərbaycanda yüksək qiymətləndiririk. Siz qeyd etdiyiniz kimi, biz ilin əvvəlində bu formatda görüşmüşdük, indi artıq ilin sonunda görüşürük. Yekun vurmaq olar. Əlbəttə, Rusiya sülhməramlı qüvvələrinin məsuliyyəti zonasında vəziyyət bütövlükdə sabitdir. Ciddi insidentlər olmayıb. Qəsdən törədilmiş təxribatlar olmayıb. Müşahidə olunan ayrı-ayrı hallar sistemli xarakter daşımırdı. Buna görə də Rusiya sülhməramlı kontingentinin yaxşı xidmətinə görə, uzun illər boyu dondurulmuş münaqişə, keçən il tammiqyaslı müharibə vəziyyətində olan regionda təhlükəsizliyi təmin etmələrinə görə təşəkkürümü bildirmək istərdim.

Bu il ərzində Azərbaycan müharibənin nəticələrinin aradan qaldırılması və kommunikasiyaların bərpası işində maksimum konstruktivlik nümayiş etdirib. Hesab edirəm ki, bu, hələlik yerinə yetirilməmiş mühüm məsələlərdən biridir. Ona görə ki, keçən il noyabr ayında qəbul edilmiş və imzalanmış üçtərəfli Bəyanatın praktiki olaraq bütün bəndləri yerinə yetirilib. Buna görə düşünürəm ki, - bu gün biz Sizinlə təbii ki, bu barədə əvvəlcə söhbət etmişik, - bu mövzu həmçinin Azərbaycan ilə Ermənistan arasında sərhədlərin müəyyən edilməsi mövzusu müzakirə ediləcək. Biz bu məsələdə Rusiya tərəfinin dəstəyini, o cümlədən məsləhət dəstəyini də çox yüksək qiymətləndiririk.

Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib. Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşular kimi yaşamağı, yenidən qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq.

Əlbəttə, bir sıra başqa məsələlər də qarşıya çıxır, lakin onlar operativ şəkildə, o cümlədən Rusiya tərəfinin, şəxsən Sizin, Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, hökumətin və digər strukturların fəal iştirakı ilə həll edilir.

Dəvət üçün, yenidən belə bir görüş keçirmək imkanı üçün bir daha təşəkkür edirəm.

❖ ❖ ❖

Ermənistanın baş naziri **Nikol PAŞİNYAN:** Vladimir Vladimiroviç, icazə verin, əvvəlcə dəvətə, bu görüşün təşkilinə görə Sizə təşəkkür edim. Bugünkü görüşün gündəliyinə keçməzdən əvvəl icazə verin, Kuzbasda çoxsaylı insanın həlak olması ilə nəticələnmiş partlayışla əlaqədar öz adımdan, erməni xalqı adından Sizə başsağlığı verim. Həlak olmuş şaxtaçıların bütün doğmalarına və yaxınlarına başsağlığı vermək istəyirəm.

Prezident **Vladimir PUTİN:** Sağ olun.

**Nikol PAŞİNYAN:** Keçən il müharibənin dayandırılmasında Sizin rolunuz və Rusiya Federasiyasının rolu aşkardır. Noyabrın 9-dan sonra Dağlıq Qarabağda, Laçın dəhlizi boyunca Rusiya sülhməramlı qüvvələri yerləşdirilib. Aşkardır ki, Dağlıq Qarabağda və regionda vəziyyətin sabitləşməsində Rusiya sülhməramlıları, Rusiya Federasiyası mühüm rol oynayır. Lakin təəssüflə vurğulamaq istəyirəm ki, vəziyyət istənilən qədər sabit deyil. Keçən il noyabrın 9-dan sonra hər iki tərəfdən onlarca insan həlak olub və hadisələr Dağlıq Qarabağda da baş verir. Bu il mayın 12-dən bəri Ermənistan-Azərbaycan sərhədində faktiki olaraq böhranlı vəziyyətdir və bizim rəyimiz belədir ki, Azərbaycan qoşunları Ermənistanın suveren ərazisinə soxulub. Əlbəttə, Ermənistan və Azərbaycan arasında sərhədlər delimitasiya və demarkasiya edilməyib, lakin dövlət sərhədi mövcuddur və bu, Ermənistan Respublikasının suveren ərazisidir.

Mən Azərbaycan Prezidentinin bu fikri ilə razılaşmıram ki, kommunikasiyaların bərpasından başqa Bəyanatın faktiki olaraq bütün bəndləri yerinə yetirilib. Bilirsiniz ki, biz bu məsələni Sizinlə dəfələrlə, həm əyani şəkildə, həm də telefonla müzakirə etmişik ki, girovlar və digər saxlanılan şəxslər, hərbi əsirlər problemi də var. Bu, çox mühüm humanitar məsələdir. Lakin demək istəyirəm ki, mənim fikrimcə, bu gün biz təkcə problemləri səsləndirmək üçün deyil, söhbət etmək, məsələləri müzakirə etmək və mövcud problemləri həll etmək üçün toplaşmışıq. Mən də dəfələrlə elan etmişəm ki, Ermənistan sərhədlərin demarkasiyası və delimitasiyası prosesinə başlamağa hazırdır. Bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması, blokadadan çıxarılması mövzusu da bizim üçün çox vacibdir. Biz bu məsələlərin həll edilməsində, həqiqətən, maraqlıyıq. Ümid edirəm ki, bu gün biz bütün bu məsələləri müzakirə edəcəyik. Mən gördüm, Siz Azərbaycan Prezidenti ilə ikitərəfli görüş zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemini də xatırlatdınız. Azərbaycan Prezidenti də indicə Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları məsələsini xatırlatdı. Əlbəttə, biz də bunda maraqlıyıq və hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılmalıdır. Düşünürəm ki, çox məsələləri üçtərəfli formatda, ikitərəfli formatda müzakirə və həll etmək lazımdır və mümkündür.

Deməliyəm ki, Azərbaycanın və Ermənistanın rəsmi şəxsləri arasında birbaşa əlaqələr də nəzərdə tutulur. Mənim fikrimcə, o qədər də yaxşı və pozitiv olmayan nüanslar fonunda bu müsbət nüansları da vurğulamaq lazımdır. Ən başlıcası, təkrar etmək istəyirəm, üzr istəyirəm, düşünürəm ki, bugünkü görüşün əsas mənası hansısa problemlərin mövcud olmasını və ya mövcud olmamasını, sadəcə, səsləndirmək deyil. Əsas odur ki, bu gün biz regionda, Cənubi Qafqazda vəziyyətin sabitləşməsinə dair konkret və ya mümkün qədər konkret qərarlara gələ bilək. Buna görə bizim məsuliyyətimiz, sülh, sabitlik və insanların təhlükəsizliyidir. Sağ olun.

❖ ❖ ❖

Prezident **Vladimir PUTİN:** Mənə belə gəlir ki, sizin indicə dedikləriniz - həm Azərbaycan Prezidenti tərəfindən, həm də Ermənistanın baş naziri tərəfindən deyilənlər, əslində, çox vacibdir. Vəziyyətin normallaşdırılmasının inkişafında, vəziyyətin müsbət həllinin inkişafında hər iki tərəfin marağı var. Siz indicə kommunikasiyalar barədə, kommunikasiyaların açılması barədə xatırlatdınız. İlham Heydər oğlu da bu barədə danışıb. Bu məsələdə hamı maraqlıdır. O cümlədən Rusiya da. Mən onu nəzərdə tuturam ki, biz bütün yaxın ölkələr, - biz qonşuyuq, biz böyük əmtəə dövriyyəsinə malikik, - hamımız bu məsələdə maraqlıyıq. Birincisi də, ikincisi də, biz yenə də o barədə razılığa gəlirik ki, yaxın vaxtlarda sərhədlərin demarkasiyası və delimitasiyası üzrə işləri, əvvəlcə delimitasiya, daha sonra demarkasiya işlərini sahmana salaq. Əlbəttə, biz bu barədə də bu gün danışacağıq. Baxmayaraq ki, məsələnin mürəkkəb olması aydındır. O, hələ Sovet İttifaqından qalıb. Orada dəqiq sərhədlər olmayıb. Lakin bütün bunlar barədə danışmaq imkanı var. Həmkarlarımla razıyam ki, nə qədər çox əlaqə, o cümlədən birbaşa əlaqələr olarsa, daha yaxşıdır. Birbaşa ikitərəfli əlaqələr, ümumiyyətlə, prioritetdir. Mən bilirəm ki, yaxın vaxtlarda sizin Brüsseldə görüşünüz nəzərdə tutulub. Siz oraya getməyə və orada görüş keçirməyə razılıq vermisiniz. Biz bunu da alqışlayırıq. Nə qədər birbaşa ünsiyyət olarsa, bir o qədər yaxşıdır. Mən bu yaxınlarda bu barədə Avropa İttifaqı Şurasının Prezidenti cənab Mişellə də danışmışam. O sizi gözləyir. Ümidvaram ki, biz irəliyə doğru hansısa addım atacağıq. Bundan sonrakı addımları digər platformalarda da atmaq mümkün olacaq. Bir daha təkrar edirəm, tərəfdaşlarımızın bu dialoqa cəlb edilməsini biz yalnız alqışlayırıq. Əsas odur ki, bu dialoq faydalı olsun. Çox sağ olun.

# Prezident İlham Əliyevin Soçi şəhərinə işgüzar səfəri

## Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər



**AZƏRTAC xəbər verir ki, noyabrın 26-da Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər.**

### Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

- Bizim üçtərəfli görüşün yekununda mən öz həmkarlarım - Azərbaycan Prezidentinə və Ermənistanın baş nazirinə bir daha təşəkkür etmək istərdim ki, onlar Rusiyaya gəlməyə və Qarabağ problemi ətrafında və bütövlükdə, hazırda regionda nizamlama məsələlərində yaranan vəziyyəti müzakirə etməyə razılaşıblar. Əvvəlcədən deməliyəm ki, bu gün biz çox konstruktiv şəkildə işləmişik. Bu gün üçün yaranmış vəziyyət dərindən təhlil edilib. Biz Rusiya sülhməramlılarının, sərhədçilərin, ərazilərin minalardan təmizlənməsi ilə məşğul olan, insanların daimi yaşayış yerlərinə qayıtmalarını təmin edən mütəxəssislərin işini yüksək qiymətləndirdik.

Onu da qeyd etmək istərdim ki, mənim fikrimcə, biz mühüm olan bir sıra məsələlər barədə razılığa gəldik. Onlardan birincisi bu ilin sonuna qədər mexanizmlər yaradılmasıdır. Biz iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərini yaratmaq barədə razılığa gəldik. Ümidvaram ki, bu, tezliklə baş verəcək. Bu mexanizmlərin yaradılması üçün heç bir maneə yoxdur.

Diqqəti cəlb etmək istədiyim ikinci məsələ humanitar xarakterli məsələlərlə bağlı çox mühüm, həssas məqamdır. Biz burada da nəzərəçarpacaq dərəcədə irəlilədik.

Nəhayət, üçüncü məsələ ondan ibarətdir ki, biz iqtisadi xarakterli məsələlər, iqtisadi əlaqələrin inkişafı barədə çox ətraflı söhbət etdik, birinci addım kimi nəqliyyat dəhlizlərinin açılması barədə danışdıq, bu, həm dəmir yoluna, həm də avtomobil yollarına aiddir. Düşünürəm ki, biz artıq xeyli müddət ərzində bu məsələ üzərində işləyən baş nazirlərimizin müavinlərinə təşəkkür etməliyik. Gələn həftə, - bu, bizim növbəti razılaşmadır, - onlar müəyyən yekunlar vurmaq və bu gün razılaşdırdığımız və qəbul etdiyimiz qərarları elan etmək üçün Moskvada toplaşacaqlar. Bugünkü işə görə bir daha çox sağ olun. Həm Azərbaycan Prezidentinə, həm də Ermənistanın baş nazirinə təşəkkürlərimi bildirmək istəyirəm.

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, icazə verin, bugünkü görüşə görə, həmçinin Azərbaycan ilə Ermənistan arasında mövcud məsələlərin həlli işində əlverişli şərait yaradılması üçün səylərinizə görə Sizə bir daha təşəkkürümü bildirim. İki ölkə arasında müharibəyə son qoymuş məlum üçtərəfli Bəyanatın qəbul edilməsindən bir il keçib və biz bu ili bütövlükdə, müsbət səciyyələndirə bilərik.

Vladimir Vladimiroviç, fürsətdən istifadə edib Sizə, habelə Rusiya Federasiyasının Müdafiə Nazirliyinə Qarabağda sülhməramlı fəaliyyətə görə bir daha təşəkkür etmək istərdim. Bu bir ildə Rusiya sülhməramlı qüvvələrinin məsuliyyəti zonasında ciddi insidentlər olmayıb. Əlbəttə, bu il ərzində çox mühüm hadisələr baş verib. Biz bu formatda artıq ikinci dəfə görüşürük - ilin əvvəlində və ilin sonunda. Sərhədlərin delimitasiyası, demarkasiyası, nəqliyyat arteriyalarının bərpası ilə bağlı məsələlər barədə Vladimir Vladimiroviçin dediklərini təkrar etmək istəmirəm. Bu gün bu məsələlər barədə çox ətraflı, mən deyərdim, səmimi söhbət oldu. Biz öz planlarımızı, hər iki tərəfi narahat edən məsələləri açıq müzakirə etdik. Ən başlıcası, mübahisələrin, fikir ayrılıqlarının nizamlanması işində qəbul etdiyimiz qərarlar, zənnimcə, Cənubi Qafqazda vəziyyətin daha təhlükəsiz və proqnozlaşdırıla bilən olmasına şərait yaradacaq. Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, humanitar xarakterli məsələlər də müzakirə edilib. Azərbaycan həmişə, - istər döyüş əməliyyatları dövründə, istər onlardan sonra, - bütün humanitar normalara riayət edilməsinə ardıcıl tərəfdar olub. Deməliyəm ki, hərbi əməliyyatlar bitəndən sonra saxlanılmış 100 nəfərdən çox erməni hərbi qulluqçu, o cümlədən bir nəfər bu gün səhər Ermənistan tərəfə verilib. Yaralanmış hərbi qulluqçuya azərbaycanlı həkimlər tərəfindən tibbi yardım göstərilib, bir nəfər mülki şəxs yolu azaraq bizim əraziyə keçib. Yəni biz həmişə humanizm prinsipinin aliliyini əsas götürmüşük və bundan sonra da işi bu istiqamətdə davam etdirmək niyyətindəyik. Biz Ermənistan tərəfindən də regionda vəziyyətin daha artıq dərəcədə proqnozlaşdırıla bilən olması üçün şərait yaradılması niyyətini görürük. Mən dəfələrlə demişəm, biz Azərbaycanda Ermənistan ilə çoxillik qarşıdurma səhifəsini çevirmək, normal qarşılıqlı fəaliyyət mərhələsinə başlamaq əzmindəyik və düşünürəm ki, məhz bu formatda öz məqsədlərimizə çatacağıq.

Azərbaycan üçün Rusiya dostdur, strateji tərəfdaşdır. Mən deyərdim ki, hətta strateji tərəfdaşdan da artıqdır. Azərbaycan ilə Rusiya arasında etimada əsaslanan münasibətlərin səviyyəsi, o cümlədən ən həssas məsələlər barəsində Ermənistan ilə ortaq fikrə gəlməyimizə şərait yaradır. Düşünürəm ki, görüşümüzün yekununun nəticələri yaxşı olacaq, bu nəticələri çox gözləmək lazım gəlməyəcək, regionda vəziyyət daha təhlükəsiz və proqnozlaşdırılan olacaq.

Vladimir Vladimiroviç, dəvətə və bugünkü görüşə görə Sizə bir daha təşəkkür edirəm.

### Ermənistanın baş naziri Nikol Paşinyanın bəyanatı

- Vladimir Vladimiroviç, icazə verin, dəvətə görə və əlbəttə, pozitiv iş şəraiti yaradılmasına görə Sizə bir daha təşəkkür edim. Mən təsdiqləmək istəyirəm ki, bizim çox müsbət görüşümüz, müsbət söhbətimiz oldu. Biz faktiki olaraq gündəlikdəki bütün məsələləri müzakirə etdik. Bu görüş problemi gizlətmək üçün deyildi. Bu görüşdə biz bütün məsələləri açıq müzakirə etdik. Qeyd etmək istəyirəm ki, bir çox məsələlər üzrə mövqelərimizi çox pozitiv dəqiqləşdirdik və məlum oldu ki, bəzi məsələlər barədə bu görüşə qədər, güman edildiyi kimi, bizdə heç bir fikir ayrılığı yoxdur. Demək istəyirəm ki, biz regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması məsələsi barədə, həqiqətən, qeyd etdik ki, bu kommunikasiyaların necə işləyəcəyi barədə təsəvvürümüz ortaqdır. Delimitasiya və demarkasiya prosesinə başlamaq mövzusu təzə deyil. Biz bu məsələni müzakirə etdik. Biz həm də üçtərəfli Bəyanat qəbul etdik, orada qeyd etdik ki, bundan əvvəl zəruri şərait yaratmaq, yəni Ermənistan ilə Azərbaycan arasında sərhəddə müəyyən təhlükəsizlik və sabitlik mexanizmlərini yaratmaq lazımdır.

Əlbəttə, humanitar məsələlərə də toxunuldu. Bugünkü söhbətləri, bugünkü görüşü mən də bütövlükdə çox müsbət qiymətləndirirəm. Bizim strateji müttəfiqimiz olan Rusiya Federasiyasına bu təşəbbüsə görə bir daha təşəkkür etmək istəyirəm. Fikrimcə, əgər bu görüşün bazasında bizim söhbətimizin müəyyən dinamikasını yarada bilsək, onda konkret nəticələr də gözləmək olar. Mən Ermənistanın və Ermənistan xalqından mandat almış Ermənistan hökumətinin ölkəmiz üçün, bizim region üçün dinc inkişaf erasının başlanmasına hazır olduğunu təsdiq edirəm və bizim hədəfimiz budur. Əlbəttə, bugünkü görüşümüz bu gündəliyin reallaşmasının xeyrinə oldu. Sağ olun.

❖ ❖ ❖

Prezident **Vladimir PUTİN:** Son olaraq bir daha vurğulamaq istəyirəm ki, görüş yüksək dərəcədə faydalı və vaxtında oldu. Artıq deyildiyi kimi, biz bugünkü birgə işimizin nəticələrinə əsasən Bəyanat imzaladıq. İctimaiyyət və kütləvi informasiya vasitələri bu bəyanatla tanış ola bilərlər. Orada bizim məşğul olduğumuz və razılığa gəldiyimiz bütün məsələlər ətraflı şərh edilib.

Məndən sol tərəfdə bizim həm erməni dostlarımıza, həm də azərbaycanlı dostlarımıza hədiyyəmizi - sülhün və əmin-amanlığın rəmzi olan zeytun budağını görürsünüz. Mən çox ümid edirəm ki, bugünkü razılaşmalar yerinə yetiriləcək və bütövlükdə Cənubi Qafqazda münasibətlərin normallaşması işində növbəti addımlar üçün şərait yaradacaq. Sağ olun.

## Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib



Noyabrın 26-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın sədri Əli Əhmədovun sədrliyi ilə keçirilən iclasda aidiyyəti qurumların nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti, uşaq hüquqlarının müdafiəsi sahəsində mütəxəssislərin bilik və bacarıqlarının artırılması, yerli komissiyaların fəaliyyətinin effektivliyinin təmin olunması, uşaq hüquqlarının təşviqi sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, komissiyanın qarşısında duran məsələlər və 2022-ci il üçün nəzərdə tutulmuş tədbirlər planı müzakirə edilib.

## Müdafiə naziri Qusar rayonunda şəhid ailələri ilə görüşüb

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Qusar şəhəri ərazisindəki Şəhidlər xiyabanını ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşların xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri düzülərək ehtiram ifadə edilib.

Müdafiə naziri burada Qusar Rayon İcra Hakimiyyətinin rəhbərliyi, şəhid ailələri və ictimaiyyətin nümayəndələri ilə görüşüb.

Görüş zamanı Milli Qəhrəman Çingiz Qurbanovun atası Salman Qurbanov Vətən müharibəsində qazanılan Qələbənin xalqımıza böyük sevinc yaşatdığını vurğulayaraq, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələri adından təşəkkürünü bildirib.

Şəhidlərimizin xatirəsinin dövlətimiz tərəfindən hər zaman ehtiramla yad edildiyini diqqətə çatdıran müdafiə naziri şəhid ailələrinin problemləri və istəkləri ilə maraqlanıb.

## Müdafiə naziri yeni yaradılan komando hərbi hissəsində olub





Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni yaradılan əməliyyat (komando) hərbi hissəsində şəxsi heyətə beretlərin təqdim olunması mərasimində iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü və şəhidlərimizin abidəsi önünə əklil qoyularaq xatirələri hörmət və ehtiramla anılıb.

Müdafiə naziri beretlərin təqdim edilməsi mərasiminə dəvət olunan Vətən müharibəsi iştirakçıları ilə görüşərək onların problemləri və istəkləri ilə maraqlanıb.

Sonra şəxsi heyətə beretlərin təqdim edilməsi mərasimi keçirilib.

Mərasimin açılışında Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

"Komando hazırlığı" kursunu müvəffəqiyyətlə bitirənlərə beretlər təqdim olunduqdan sonra şəxsi heyət "Komando andı"nı qəbul edib.

Mərasimdə çıxış edən müdafiə naziri hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin daha da yüksəldilməsində Türkiyə Silahlı Qüvvələrinin təcrübəsinə əsaslanan "Komando hazırlığı" kurslarının əhəmiyyətini xüsusi vurğulayaraq şəxsi heyətə xidmətlərində uğurlar arzulayıb. Müdafiə naziri şəxsi heyətə Silahlı Qüvvələrin Ali Baş Komandanının yeni döyüş tapşırıqlarının icrasına hər an hazır olmaları barədə müvafiq göstərişlər verib.

General-polkovnik Z.Həsənov Azərbaycan Ordusunun hərbi qulluqçularının, eləcə də hərbi hissənin şəxsi heyətinin Vətən müharibəsində göstərdikləri şücaət və qəhrəmanlıqların yüksək qiymətləndirildiyini bildirib. Komandolar üçün hazırlanmış xüsusi idman şəhərciyi ilə tanış olan müdafiə naziri əməliyyat qruplarının fiziki hazırlıq üzrə nümunəvi çıxışlarını izləyib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birgə nahar edib.

# Milli Məclisin Sədri Sankt-Peterburqda Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun direktoru ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Klüqe ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Sədri Azərbaycanın ÜST ilə uğurlu əməkdaşlığından danışaraq diqqətə çatdırıb ki, 1994-cü ildən ölkəmizdə fəaliyyət göstərən ÜST ilə əlaqələr müxtəlif istiqamətlərdə davam edir.

Spiker görüşdə Azərbaycanda COVID-19-a qarşı mübarizə tədbirləri haqqında məlumat verib. O, həmçinin xatırladıb ki, Azərbaycan COVID-19-a qarşı vaksinlərə bərabər və ədalətli çıxış əldə etmək üçün səy göstərən ölkələrdən biridir. ÜST tərəfindən Azərbaycanın qlobal miqyasda COVID-19 pandemiyasına qarşı mübarizəyə verdiyi yüksək qiymət ölkəmizin təşəbbüslərinin bütün dünya üçün əhəmiyyətini bir daha təsdiqləyir.

Sahibə Qafarova qeyd edib ki, ölkəmiz qısa müddət ərzində 30-dan çox dövlətə və beynəlxalq təşkilata maliyyə və humanitar yardım göstərib, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü yardım edib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprelində keçirilən Türk Şurasının Sammiti, həmin ilin mayında Qoşulmama Hərəkatının Zirvə görüşü və BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası təsdiqləyir ki, Azərbaycan qlobal problemlərin həlli üçün məsuliyyət daşımağa hazır olan güclü dövlətdir. Bu təşəbbüslər ölkəmizin beynəlxalq həmrəyliyə və əməkdaşlığa sadiqliyini bir daha nümayiş etdirir.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun direktoru Hans Klüqe Azərbaycan parlamentinin başçısı ilə görüşməkdən məmnunluğunu bildirib. Büro direktoru Azərbaycanın pandemiya ilə mübarizəyə verdiyi töhfələri və pandemiyanın aradan qaldırılması üçün göstərdiyi səyləri yüksək qiymətləndirib. Hans Klüqe bu prosesin indi də uğurla davam etdirilməsindən razılığını bildirib. O, pandemiya dövründə Azərbaycan hökumətinin həyata keçirdiyi uğurlu tədbirlərin vəziyyətinin Azərbaycan Prezidentinin tam nəzarəti altında olduğunu göstərdiyini xüsusi vurğulayıb. O, Azərbaycanın COVID-19-la qlobal mübarizəyə verdiyi dəstəyə görə ölkəmizə təşəkkür edib. Qeyd edib ki, Azərbaycan bu qlobal pandemiyanın yayılmasının qarşısının alınması məqsədilə ilk addımlar atan ölkələrdən biridir.

Sonra görüşdə digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Özbəkistan parlamentinin Sədri Azərbaycanın Vətən müharibəsində Qələbəsindən sonra regionda yaranmış vəziyyət barədə məlumatlandırılıb

Rusiya Federasiyasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 26-da Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclisin Sədri Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini qeyd edib. Sahibə Qafarova ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəyə çatmasında hər iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların əhəmiyyətli rolunu vurğulayıb. Sədrin sözlərinə görə, iki ölkə arasında dostluq əlaqələri ümumi dəyərlər və tarixi bağlılıqla yanaşı, ikitərəfli səfərlər və görüşlər zamanı imzalanmış bir sıra birgə bəyanatlar və müqavilələrə əsaslanır. Sədr hazırda Azərbaycanla Özbəkistan arasında münasibətlərin daha da genişləndirilməsi üçün müvafiq hüquqi bazanın mövcud olduğunu diqqətə çatdırıb.

Görüşdə Milli Məclisin Sədri qanunverici orqanlar arasında da əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, Azərbaycan və Özbəkistanın parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verdiyini deyib. Sahibə Qafarova həmçinin ötən il 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı Qələbədən sonra regionda yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq və bərpa işləri haqqında həmkarını məlumatlandırıb.

Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva da dost ölkələrimiz arasında münasibətlərin inkişafından razılığını bildirərək qeyd edib ki, Azərbaycanla Özbəkistan bir çox sahələrdə əməkdaşlıq edir. O, Özbəkistan-Azərbaycan münasibətlərinin inkişafında parlamentlərin rolunu da qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan nümayəndə heyəti Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında iştirak edəcək

Noyabrın 26-da Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında və Assambleya çərçivəsində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında iştirak etmək üçün İspaniyanın paytaxtı Madrid şəhərinə səfər edib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə deputatlardan Nigar Arpadarai, Kamran Bayramov, Qüdrət Həsənquliyev, Elnur Allahverdiyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında müzakirə olunan məsələlərə nümayəndə heyətimiz öz münasibətini bildirəcək, qeyd və təkliflərini verəcək. Assambleya çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan tərəfinin təşəbbüsü ilə keçiriləcək Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında çıxış edəcək. Tədbirdə iştirak edən nümayəndə heyətləri başçılarının müraciətləri dinləniləcək.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirlərdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Səfər noyabrın 29-da başa çatacaq.

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın 53-cü plenar iclasında çıxış edib

Noyabrın 26-da MDB Parlamentlərarası Assambleyasının 53-cü plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova Assambleyanın plenar iclasında çıxış edib.



Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Azərbaycan parlamentinin Sədri bildirib ki, bu gün geniş beynəlxalq miqyasda öz quruculuq imkanlarını reallaşdırmağa qadir olan parlament diplomatiyasının əhəmiyyəti artmaqda davam edir. O, qeyd edib ki, MDB PA-nın himayəsi altında həyata keçirilən yeni ideyalar və layihələr, mühüm beynəlxalq tədbirlər sayəsində assambleyaya maraq artır.

Azərbaycan parlamentinin spikeri III Avrasiya Qadın Forumunun əhəmiyyətini vurğulayıb, həmçinin cari ilin mayında keçirilmiş IX Neva Beynəlxalq Ekoloji Konqres müstəvisində parlamentarilərin qlobal ekoloji dialoqu davam etdirmələrinin önəmli olduğunu söyləyib.




O, məmnunluqla bildirib ki, parlamentarilər bu gün çox zəruri olan ətraf mühitin təhlükəsizliyinin təmin olunması sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş növbəti addımları müzakirə ediblər.

Sahibə Qafarova öz nitqində ölkəmizin növbəti ildə MDB-yə üzv dövlətlərin Parlamentlərarası Gənclər Assambleyasına sədrliyi böyük məmnuniyyətlə qəbul etdiyini söyləyib. O, əminliklə bildirib ki, gənc parlamentarilər assambleyaya üzv dövlətlər arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfələrini verməkdə davam edəcəklər. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Ermənistanla 44 günlük müharibədə Qələbə əldə edərək Azərbaycan azad olunan ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlayıb. Sahibə Qafarova məcburi köçkünlərin, erməni işğalından əziyyət çəkən bir milyondan çox insanın tezliklə öz yurdlarına qaytarılacağını söyləyib. Sədr bildirib ki, Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən ötən il noyabrın 9-da imzalanmış üçtərəfli Bəyanat əsasında münaqişəyə son qoyulub.

Parlamentin Sədri qeyd edib ki, Azərbaycan hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi əsasında sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyasına dair Ermənistana bir sıra təkliflər verib. Bu, beynəlxalq hüququn normalarına cavab verir. Sahibə Qafarova deyib ki, biz regionda sabitlik və firavanlıq istəyirik, müharibə haqqında yox, sülh və gələcək barədə danışmaq istəyirik.

Çıxışının sonunda Azərbaycan parlamentinin Sədri iclas iştirakçılarının bundan sonra da qarşılıqlı hörmət və dəstəyə söykənən prinsiplər əsasında assambleya çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsinə hazır olduqlarına əminliyini ifadə edib.

# Milli Məclisin deputatları MDB Parlamentlərarası Assambleyasının “Parlament əməkdaşlığının möhkəmləndirilməsi” medalı ilə təltif olunublar

Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Müstəqil Dövlət Birliyinin Parlamentlərarası Assambleyasının (MDB PA) tədbirlərində iştirak etmək üçün Sankt-Peterburqda səfərdə olan parlament nümayəndə heyətinin üzvləri “Səhiyyə xidmətlərinin hamıya şamil olunması və dayanıqlı inkişafın məqsədləri” mövzusunda beynəlxalq konfransın işində, qurumun daimi komissiyalarının iclaslarında iştirak ediblər.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin deputatı Nizami Səfərov beynəlxalq konfransın panel diskussiyalarına qatılıb, MDB PA-nın plenar iclasında bir sıra model qanunlar haqqında məruzə ilə çıxış edib, qurumun Sosial siyasət və insan hüquqları daimi komissiyasının işində iştirak edib. Deputatlardan Anatoliy Rafailov yuxarıda adıçəkilən komissiyanın, Rüfət Quliyev, Anar Məmmədov, İltizam Yusifov (onlayn formatda) təşkilatın İqtisadiyyat və maliyyə üzrə daimi komissiyasının, Rasim Musabəyov, Tamam Cəfərova, Emin Hacıyev (onlayn formatda) MDB PA-nın Siyasi məsələlər və beynəlxalq əməkdaşlıq üzrə daimi komissiyasının iclaslarında gündəlikdə olan məsələlərin müzakirəsində yaxından iştirak ediblər. Deputatlarımız müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin mövqeyini bildirib, öz qeyd və təkliflərini veriblər.



MDB PA-nın plenar iclası çərçivəsində Milli Məclisin deputatları Nizami Səfərov və Tamam Cəfərova Assambleyanın “Parlament əməkdaşlığının möhkəmləndirilməsi” medalı ilə təltif olunublar.

Sankt-Peterburqda keçirilən tədbirlərdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və MDB-nin Parlamentlərarası Assambleyasında Milli Məclisin daimi nümayəndəsi - Baş katibin müavini Aydın Cəfərov iştirak ediblər.

# REGİONLAR



## Füzuli-Hadrut avtomobil yolunun inşası davam edir

Azərbaycanın işğaldan azad edilən ərazilərində həyata keçirilən infrastruktur layihələri arasında yolların yenidən qurulması xüsusi əhəmiyyət kəsb edir. Belə layihələrdən biri də Füzuli-Hadrut avtomobil yolunun inşasıdır.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın cari il martın 16-da işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı təməli qoyulan avtomobil yolunun uzunluğu 13 kilometrdir. Bu yol başlanğıcını "Zəfər" yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşəcək. Dörd hərəkət zolaqlı olacaq yol boyunca avtomobil körpüləri inşa ediləcək.

Hazırda yolboyu torpaq işləri görülür. Xüsusi texnikalardan istifadə olunmaqla qazma və dolğu işləri həyata keçirilir, yolun genişləndirilərək profilə salınması, həmçinin yeni yol yatağının və yol əsasının inşası aparılır. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

## I Gəncə Kitab Sərgisi keçirilir

Gəncədə "Azərbaycan Nəşriyyatları" İctimai Birliyinin (ANİB) təşəbbüsü və təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə İctimai İştirakçılıq Məclisinin təşkilati dəstəyi ilə I Gəncə Kitab Sərgisi keçirilir.

AZƏRTAC-ın yaydığı xəbərdə bildirilir ki, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində təşkil edilən sərgi "Nizami Gəncəvi ili"nə həsr olunub.

Sərgidə ölkənin 30-dan artıq nəşriyyatı və 10-dan çox kitab evi iştirak edir. Sərgidə kitablara 50 faizədək endirim tətbiq olunur, həmçinin məşhur şair və yazıçıların iştirakı ilə təqdimatlar, imza mərasimləri, şeir gecələri, uşaqlar üçün nağıl saatları, rəssamların, müxtəlif sənət nümayəndələrinin əsərlərindən ibarət sərginin təşkili və bədii proqramlar keçiriləcək.

Sərgidən öncə dahi şair Nizami Gəncəvinin məqbərəsi ziyarət edilib.



## Payızlıq taxıl əkini yekunlaşır

**Məlumdur ki, kənd təsərrüfatında mövsümi işlər bir-biri ilə əlaqədardır. Pambıq tarlalarında məhsul yığılıb başa çatdıqdan sonra sahələr dərhal şumlanır və yenidən növbəti əkinə hazırlanır. Həmin yerlərdə payızda adətən ya taxıl, ya da yonca əkilir. Qalanı isə yazda əkiləcək bitkilər üçün arat edilib saxlanılır. Beləliklə, növbəli əkin sistemini tətbiq etməklə torpaq saflaşır, daha məhsuldar olur, bitkilər xəstəliklərə tutulmur.**

Hava şəraiti ilə əlaqədar bu il pambığın yetişməsi müəyyən müddət uzandı. O səbəbdən indinin özündə tarlalarda xeyli məhsul var və məhsul yığımı davam edir. Qeyd edək ki, keçən il olduğu kimi, Salyan rayonu pambıq yığımında ölkə üzrə yenə öndədir. Çiyid səpilmiş 6 min 195 hektardan noyabrın sonuna olan məlumata görə, 21 min tondan çox pambıq toplanmışdır. Hər hektarın məhsuldarlığı isə hələlik 33,7 sentnerdir. Ümumi məhsulun 86 faizi maşınlarla yığılmışdır. Hazırda seçmə yolu ilə pambıq sahələri şumlanaraq yerində əkin aparılır. Gələn ilin məhsulu üçün 17 min 274 hektara taxıl səpilməsi nəzərdə tutulur. Hələlik 10 min 311 hektara taxıl əkilmişdir. Bunun 7 min 798 hektarı arpadır. Qalan 2 min 518 hektarın 2 min 311 hektarına buğda səpilmişdir. Ümumilikdə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1985 hektar çox sahədə əkin aparılmışdır.

Əkin kampaniyasında 60 toxumsəpən aqreqat, 120 traktor, o qədər də mala iştirak edir. Bir çox fermerlər daha yüksək məhsul əldə etmək üçün səpin zamanı toxumla birlikdə torpağa ammofos gübrəsi də verirlər. Mülkiyyətçilər daha yaxşı nəticələrə nail olmaq üçün yüksək reproduksiyalı toxumlar əldə etmişlər. Onlar suvarma suyu ilə əlaqədar yaranan müəyyən çətinlikləri aradan qaldırmaq, suyun hər kubmetrindən daha səmərəli istifadə etmək, itkiyə yol verməmək üçün səylə çalışırlar.

Ziyanvericilərlə mübarizə aparılması, ilkin yazda əkinlərə mineral gübrələrin verilməsi, alaq otlarına qarşı herbisidlərin səpilməsi və digər aqrotexniki tədbirlər indidən planlaşdırılır. Bütün bunlar isə deməyə əsas verir ki, salyanlı fermerlərin, torpaq mülkiyyətçilərinin gələn il də taxılı bol olacaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Lənkəran teatrı Ağdamda qastrol səfərində olub

Lənkəran Dövlət Dram Teatrının truppası Ağdam rayonunda qastrol səfərində olub. Lənkəranlı sənətçilər Ağdam Dövlət Dram Teatrının Quzanlı qəsəbəsindəki binasında görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" tamaşasını təqdim ediblər.

Tamaşadan əvvəl çıxış edən Ağdam Rayon İcra Hakimiyyəti başçısının müavini Xəqani Nəzərov, rayon Dövlət Dram Teatrının direktoru Məhəmməd Hüseynov və Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov teatr kollektivlərinin qarşılıqlı yaradıcılıq münasibətlərinin yaradılmasının əhəmiyyətindən danışaraq sənətçilərə uğurlar diləyiblər. Qeyd olunub ki, cari ilin iyul ayında Ağdam və Lənkəran teatrları arasında bağlanmış niyyət sazişində hər iki kollektiv arasında yaradıcı münasibətin qurulması, qarşılıqlı qastrol səfərlərinin təşkili, rejissor və aktyor mübadiləsi, texniki dəstək, yaradıcı görüşlər və təcrübə mübadiləsi nəzərdə tutulur. O da vurğulanıb ki, Vətən müharibəsində qazanılmış qələbədən sonra Qarabağa ilk qastrol səfəri də məhz Lənkəran teatrına qismət olub.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir. Rolları Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa edblər.

Qastrol səfəri lənkəranlı sənətçilərə həm də unudulmaz anlar bəxş edib. Tamaşadan sonra onlar erməni faşistləri tərəfindən dağıdılmış Ağdam şəhər məscidinin və Ağdam Dövlət Dram Teatrının binasının qalıqlarına baş çəkərək mənfur qonşularımızın cinayətkar əməlləri ilə əyani tanış oublar.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

## Ağdaşda "Çempionumuz" layihəsi çərçivəsində məktəblilərlə görüş təşkil edilib

"Çempionumuz" layihəsi çərçivəsində Ağdaşın Orta Ləki kənd tam orta məktəbində idmanın taekvondo növü üzrə paralimpiyaçı Ayxan Nuruyev ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə rayon gənclər və idman idarəsinin rəisi Azad Gözəlov, taekvondo idman növü üzrə məşqçi müəllim Eşqin İsmayılov layihə ilə əlaqədar məktəblilərə ətraflı məlumat verib, Ayxan Nuriyevin idmanda qazandığı uğurlar haqqında danışıblar. Ayxan Nuriyev çox sevdiyi, həm də heç də asan olmayan idman sahəsindəki fəaliyyətindən danışıb, ayrı-ayrı yarışlardan xatirələr söyləyib, habelə məktəbliləri maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, layihə çərçivəsində həyata keçirilən tədbirdə əsas məqsəd bədən tərbiyəsi və idman sahəsində maarifləndirmə işinin artırılması və idman sahəsində nailiyyət qazanmış rayon idmançılarının tanıdılmasıdır.

## Aqrar Sığorta Fondundan fermerlərə xəbərdarlıq

### Sığortasız əkin sahələri subsidiya ala bilməyəcək

Azərbaycanda dövlət dəstəyi ilə güzəştli aqrar sığorta mexanizmini həyata keçirən Aqrar Sığorta Fondu 10 hektar və daha artıq əkin sahəsi olan fermerlərə müraciət edib.

Fond fermerlərə xatırladır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 sentyabr 2021-ci il tarixli fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilib. Fərmana əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan bitkilər üzrə 10 hektardan artıq əkin sahələrinə əkin subsidiyaları 3 il ərzində aqrar sığorta olunmaqla veriləcək.

Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən siyahıya əsasən aqrar sığorta tələbi 7 bitkiyə - buğda, arpa, çəltik, çay, limon, fındıq və qarğıdalıya şamil edilib. Yenilik ölkənin ərzaq təhükəsizliyinin təmin edilməsi, təsərrüfatların təbiət hadisələri və digər risklərdən sığortalanması, fermerlərin məhsullarının və gəlirlərinin qorunması məqsədi daşıyır.

Dövlət tərəfindən fermerlərə verilən çoxsaylı dəstək mexanizmləri aqrar sığortada da nəzərdə tutulub. Belə ki, aqrar sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Ölkə üzrə orta rəqəmləri nəzərə alanda 1 hektar taxıl sahəsinin sığorta haqqının fermerlər tərəfindən ödənilən hissəsi regionlar üzrə əsasən 6-12 manat arasında dəyişir ki, bu da fermerlərə dövlət tərəfindən verilən əkin subsidiyasının cüzi hissəsini təşkil edir. Aqrar Sığorta Fondu bildirir ki, fermerlərin subsidiyadan kənarda qalmaması üçün bütün addımlar atılır - əkin bəyanları edən fermerlərlə əlaqə saxlanılır və onlara aqrar sığorta tələbi xatırladılır, sığorta şərtləri və digər zəruri məlumatlar verilir. Bununla yanaşı, əkinlərin sığortalanması proseduru elə sadələşdirilib ki, internet vərdişləri olmayan fermerlər də rahat şəkildə sığorta müqaviləsi bağlaya bilirlər.

Qeyd edək ki, dekabrın 30-da əkin bəyanları başa çatdıqdan sonra həmin vaxtadək sığorta olunmayan fermer və təsərrüfatların əkin subsidiyası alması mümkün olmayacaq.

Aqrar Sığorta Fondu fermerləri həmin dövrə qədər əkin sahələrini güzəştli şərtlərlə sığortalamağa, məhsullarını və gəlirlərini qorumağa çağırır.

## Ermənilərin məhv etdikləri meşələrimiz də qısa zamanda bərpa olunacaq



Ölkə ekoloqları işğaldan azad olunmuş ərazilərin yaşıl örtüyünün bərpası, eləcə də regionun "yaşıl enerji" potensialı məsələlərini müzakirə ediblər.

Bu barədə yayılan məlumatda bildirilir ki, "2022-2026-cı illərdə Azərbaycanın meşə fondunun bərpası proqramı" hazırlanıb. Proqramda işğaldan azad edilmiş ərazilərdə və Qarabağın digər yerlərində meşələrin bərpa olunması tədbirləri nəzərdə tutulur. Artıq bu işlər çərçivəsində Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi ilə birlikdə Cəbrayıl şəhərinin ətrafında 20 hektar ərazidə "Dostluq meşəsi" salınmağa başlanıb. Burada örtülü şəraitdə fidanlar yetişdiriləcək. Ərazidə həmçinin Tədris Mərkəzi yaradılması istiqamətində işlər aparılır.

Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdə aparılacaq bərpa işlərinin layihələndirilməsi və planlaşdırılması üçün topoqrafik xəritə hazırlanır, bərpa işlərində istifadə oluna biləcək yerli tikinti materiallarının ehtiyatı hesablanır.

"Yaşıl enerji" konsepsiyası çərçivəsində bərpa edilən enerji mənbələrinin maksimum potensialının hesablanması üçün ssenari isə artıq hazırdır.



## Abşeron yol infrastrukturuna görə də önə keçir



**Son illər Abşeron rayonu ölkənin əsas abadlıq və quruculuq ünvanlarından birinə çevrilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, verdiyi tapşırıq və tövsiyələr rayonun simasını büsbütün dəyişib.**

Təsadüfi deyil ki, dövlət başçısının cari ilin əvvəlində imzaladığı ilk sərəncamlardan biri məhz Abşeron rayonu ilə bağlı olub. "Abşeron rayonunun ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında" sərəncama əsasən, rayonun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan avtomobil yollarının əsaslı təmiri üçün 19,7 milyon manat ayrılıb.

Bu gün isə Xırdalan şəhərinin M.Ə.Rəsulzadə küçəsində təmir işləri başa çatmaq üzrədir. Layihə çərçivəsində səkilər yenidən qurulub, küçənin köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb. Sonuncu mərhələdə kanalizasiya quyularının qapaqları yenilənəcək, yol kənarlarına yeni yağış barmaqlıqları yerləşdiriləcək, hərəkətin normal təşkili üçün yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq, yolcizgi və yolgöstərici xətlərini, həmçinin piyada zolaqlarının çəkilməsi işləri aparılmaqla müasir yol infrastrukturu yaradılacaq. Bütün bu işlərin vaxtında yekunlaşması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Xırdalan şəhərində Əvəz Şəfiyev küçəsi də əsaslı şəkildə yenidən qurulur. Hazırda bu və şəhərin daha iki küçəsində asfaltlanma işləri aparılır. Layihə çərçivəsində həmin küçələrdə piyada səkiləri yenidən qurulub, kənarlarında olan köhnə səki daşları sökülərək yeniləri ilə əvəzlənib.

Prezident sərəncamına uyğun olaraq, Masazır kəndində ümumi uzunluğu 6260 metr olan 6, Qobu qəsəbəsində 7840 metr uzunluğunda 5, Ceyranbatan və Saray qəsəbələrində 5950 metrlik 3 və Mehdiabad qəsəbəsində ümumi uzunluğu 6450 metr olan 4 küçənin təmiri nəzərdə tutulur. Bütün bu küçələr uzun müddət əsaslı təmir olunmadan istismar edilirdilər. Ümumilikdə bu kənd və qəsəbələrdə 23 küçə və yolda təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Həmin küçələrin böyük qismində işlər artıq başa çatıb. Məsələn, Masazır kəndində sərəncama əsasən təmiri nəzərdə tutulan 7 küçədən 5-də işlər tamamlanıb. Ümumi uzunluqları 4,4 kilometr, sahəsi 27 min kvadratmetrdən çox olan 6 küçənin də bu ilin sonunadək təmir olunaraq istifadəyə verilməsi planlaşdırılır. Mehdiabad qəsəbəsində isə 4 küçə yenidən qurulur. Bir küçədə asfaltlama işi başa çatıb. Həmin küçə Abşeron rayonunda kənd və qəsəbələri birləşdirən yol olduğu üçün onun təmiri böyük əhəmiyyət daşıyır.

Saray qəsəbəsində isə 7 küçə yenidən qurulur. Bu küçələrin ümumi uzunluğu 4 kilometrdir. 21 min kvadratmetr sahəyə asfalt örtüyü çəkiləcəyi nəzərdə tutulur. Artıq küçələrdə beton-bərkitmə işləri yekunlaşıb. Ceyranbatan, Mehdiabad, Qobu, digər kənd və qəsəbələrdə ara yollar da təmir edilərək istifadəyə verilib. Bundan əlavə, Qobu qəsəbəsində 4 küçədə təmir-tikinti işləri aparılır. Həmin küçələrin ümumi uzunluğu 6,8 kilometrdir. 62 min kvadratmetrdən çox ərazini əhatə edən küçələrdə torpaq, asfalt-beton örtüyünün döşənməsi işləri artıq yekunlaşıb. Ara yollar isə təmir edilərək istifadəyə verilib.

Onu da qeyd edək ki, yeni çəkilən yolların kənarlarında da yaşıllaşdırma işləri də aparılır. Əkilən ağaclar vaxtaşırı sulanır, dibləri bellənir. Ümumiyyətlə, Abşeronda son illər yaşıllaşdırmaya diqqət artıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Qəbələdə "Qələbə" tamaşası nümayiş etdirilib

Qəbələ Rayon Mədəniyyət Mərkəzinin səhnəsində İsmayıl bəy Qutqaşınlı adına Xalq Teatrı kollektivinin hazırladığı Vətən müharibəsində qazanılmış tarixi Qələbəyə həsr olunmuş tamaşa nümayiş etdirilib.

Bu barədə AZƏRTAC Qəbələ Rayon İcra Hakimiyyətinə istinadən məlumat yayıb.

Məlumatda bildirilir ki, tamaşada şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları və qazilər iştirak ediblər. Tamaşanın ssenari müəllifi Nargilə Rəhman, səhnə quruluşçusu Nihad Cəlilzadədir. Şanlı Qələbəyə həsr olunan səhnə əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Tamaşanın nümayişindən sonra rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən söz açıb, mədəniyyət müəssisələrində vətənpərvərlik mövzusunda tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb. Rayon icra hakimiyyətinin rəsmisi yüksək peşəkarlıqla hazırlanan tamaşaya görə xalq teatrının üzvlərinə minnətdarlığını bildirib.



AZƏRBAYCAN www.azerbaijan-news.az



2021-ci il "Nizami Gəncəvi ili"dir

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*



Klassik irsimiz



# Nizami və Həqiri "Leyli"lərini birləşdirən xətt: *türk təfəkkürü*

**Qədim ərəb əfsanə və rəvayətlərindən boylanan, türk xalq folklorunda da özünəməxsus versiyaları mövcud olan "Leyli və Məcnun" dastanı dahi Nizaminin əsrləri fəth edən, bir-birini əvəzləyən insan nəsilləri üçün yenidən kəşf olunan təfəkkürünün süzgəcindən keçərək yazılı ədəbiyyata gəlmiş və uğurlu bir ömür yolu keçmişdir.**

Nizami poemalarını yüksək qiymətləndirən, onları bütün gözəlliklərin xəzinəsi adlandıran XIII əsr müəllifi Məhəmməd Ovfi tərtib etdiyi və dahi şair haqqında məlumat verən ilk mənbə kimi dəyərli olan "Lübabül-əlbab" təzkirəsində "Leyli və Məcnun" poemasını üzünü göstərməklə ağılları başdan alan türk gözəllərindən bəhs edən bir əsər kimi dəyərləndirir: *"Türküstanın mənzum "Məcnun və Leyli"dəki zərif qıyıq gözlü gözəlləri üzlərindən duvaqı çəkməklə dünyanın bütün aqillərinin ağlını başından almağa qadirdirlər"*. Professor Xəlil Yusifli yazır ki, "onun (Məhəmməd Ovfinin - T.B.) bu qeydi poemanın özündən gəlir. Nizami özü Leylini təsvir edərkən "onu adamları özünə məftun etməkdə bir əcəm türkü", bugünkü sözlərlə desək, bir azərbaycanlı kimi təqdim edir".

*Mahe-ərəbi be rox nəmudən*
*Torke-əcəmi be del robudən.*

Yəni

*Üzünü göstərməkdə ərəb ayı idi,*
*Könül ovlamaqda əcəm türkü idi.*

Mövzusu tarixdə ərəb əfsanəsi kimi məşhurlaşmış sevgi hekayətindən götürülmüş, farsca yazılmış bir əsərdə ədəbiyyat bilicisini türk ruhunu, türk obrazlarını, Türküstan gözəllərini görməyə vadar edən nə idi? Hətta Nizaminin türk olduğunu etiraf etsə də, bu məsələyə çox ehtiyatla və həssaslıqla yanaşmağı tövsiyə edən, Nizamini fars ədəbiyyatında bir mərhələ adlandıraraq şairi bu baxımdan milliyyətcə ukraynalı olan Qoqolun rus ədəbiyyatındakı mövqeyi ilə qarşılaşdıran akademik Aqafangel Krımski də Ovfinin bu etirafına etiraz etmir: "Səciyyəvidir ki, Nizaminin müasiri olmuş ədəbiyyat tarixçisi Ovfi poemanın bədiiliyini qiymətləndirməyi bacarsa da, onun "Türküstana aid olduğunu" etiraf etmişdir, yəni həm poemanın qəhrəmanlarında, həm də onların həyat tərzində, görünür, məşhur klassik ərəb-bədəvi aşiq cütlüyünü və ədəbi baxımdan tərifi göylərə qaldırılmış, natiqlik istedadı (fəsaha) ilə məşhur klassik ərəb məişətini deyil, Nizaminin uşaqlıq çağlarından doğma Gəncəsinin yaxınlığında yaxşı müşahidə etdiyi köçəri türklərin məişət və düşüncəsinin əksini görmüşdür".

Təbii ki, yaratdığı əsərə, obrazlara, onların həyat tərzinə, ailədaxili münasibətlərə, məişət məsələlərinə müəllifin dünyagörüşü, elmi-fəlsəfi, ədəbi bilgilərinin səviyyəsi və mənimsədiyi məlumatların əhatə dairəsi ilə yanaşı, yaşadığı mühitin təsiri də yaradıcılıqda özünü göstərən məqamdır və bu baxımdan Nizami Gəncəvi əsərləri də istisna deyildir. Məhz elə buna görə də Nizamini fars dilində yaranmış ədəbiyyatda Azərbaycan üslubunun yaradıcılarından biri hesab edirlər. Bu üslubun ən fərqləndirici əlamətlərindən biri də məhz qadına, xüsusilə ailə daxilində anaya, yar-yoldaşa münasibət idi. Çünki türk ailəsində, türk təfəkküründə qadın yalnız bir sevgili və yaxud məişət güzəranının qayğısına qalan hüquqsuz bir kölə deyil, həm də bir qəhrəman, ağıllı məsləhətləri ilə yol göstərən, ailədə, bəzən hətta dövlət məsələlərində sözü keçən bir şəxsiyyət idi. Bunu hələ Nizami Gəncəvinin ilk məsnəvisi olan "Sirlər xəzinəsi"ndə də (Sultan Səncəri tənbeh edən qarının simasında), daha parlaq şəkildə "Xosrov və Şirin"in Məhin Banu və Şirin obrazlarında da görürük. Bu da təbii ki, Nizami düşüncəsinin türk qaynaqlarından, türk dastanlarından, "Kitabi-Dədə Qorqud"dan gələn bir motiv idi.

Nizaminin yaşayıb-yaratdığı dövrdə türk xalqlarının həyatında, eləcə də şairin doğma Gəncəsində qadınlar ailə daxilində heç də fağır, məzlum mövqe tutmurdular. Bunu o dövrün elmi-bədii, tarixi əsərləri də sübut edir. Məşhur Səlcuq veziri Nizamülmülk "Siyasətnamə" əsərində türk qadınlarının digər xalqlara, məsələn, vəzirin özünün mənsub olduğu farslara nisbətən daha sərbəst, daha hökmlü olduqlarını, ailə və bəzən hətta dövlət məsələlərində sözünün, mövqeyinin daha çox dəyərləndirildiyini "təəssüflə" (A.Krımski) yazırdı.

Deməк ki, Azərbaycan şairinin yaşadığı mühitdən, xalqının adət-ənənələrindən gələn və təbii olaraq onun əsərlərinə də nüfuz edən cəhət - qadına belə bir münasibət nə Nizamidən əvvəl, nə də uzun müddət sonra olmuşdur. Məsələn, Əmir Xosrov Dəhləvinin Şirini ilə müqayisələr aparmaq kifayətdir.

Bir məqamı də qeyd edək ki, Axsitandan "Leyli və Məcnun"u türksayağı, yəni o dövrdə dəbdə olan ibarələrdən fərqli olaraq təmiz, bəzək-düzəksiz türk dilində deyil, fars dilində yazmasına dair göstəriş alan şairin əsərində türk ruhunu daha çox qabartması bəlkə də məhz Axsitanın göstərşinə bir etiraz idi. Hətta əsərdə türk təfəkkürünün, həyat tərzinin, ailə-məişət münasibətlərinin təcəssümü o dərəcədə güclüdür ki, akademik Teymur Kərimli "ərəb əfsanəsi Nizami poemasına yalnız ad vermişdir" deməkdən çəkinməmişdir.

Nizamidən sonra fars və türkdilli ədəbiyyatlarda onlarca "Leyli və Məcnun"lar yazılsa da, bu əsərlərin hər birində gəncəli ustadın "şirin balı"ndan damlalar vardır. Təqdirəlayiq haldır ki, bu mövzuda yazan müəlliflərin özləri də bunu etiraf etmiş və Nizami "Xəmsə"sinə daxil olan bu dastanın mövzusuna müraciət etməyi, öz qələmlərini dahi şairin mövzu meydanında sınamağı özlərinə şərəf və məharət saymışlar. Nüşabə Araslı "Nizami və türk ədəbiyyatı" monoqrafiyasında bu barədə çox böyük fəxrlə qeyd edir ki, "türk ədəbiyyatında Nizami mövzularını işləyən bütün şairlər kimi, "Leyli və Məcnun" mövzusunda yazan bütün sənətkarlar da Nizamini mövzunun ilk yaradıcısı kimi hörmətlə xatırlamış, öz məhəbbətlərini bildirmişlər. Türk dilində qələmə alınan bütün "Leyli və Məcnun"larda Nizami əsəri bir örnək kimi yad edilir".

Ədəbiyyat tariximizdə bu mövzunun ən önəmli tarixi məqamlarından biri də Azərbaycan dilində ilk "Leyli və Məcnun"un yaranması hadisəsidir. Qeyd edək ki, Azərbaycan ədəbiyyatşünaslığındakı son onilliklərdə aparılan araşdırmalar nəticəsində ana dilimizdə Məhəmməd Füzulidən əvvəl "Leyli və Məcnun" yazan XV-XVI əsr şairləri Zəmiri, Ətai və Həqirinin adları elm aləminə bəlli olmuşdur. Lakin mənbələr Zəmirinin Azərbaycan dilində "Leyli və Məcnun" yazdığını söyləsə də, şairin əsəri günümüzədək gəlib çatmamışdır. XVI əsr şairi Ətainin əsəri haqqında Qəzənfər Əliyev "Nizami mövzu və süjetləri Şərq xalqları ədəbiyyatında" (rus dilində) monoqrafiyasında bəhs etmiş və poema barədə ilk dəfə türk divan ədəbiyyatının görkəmli tədqiqatçısı A.S.Ləvəndin "Ərəb, fars və türk ədəbiyyatlarında "Leyla və Məcnun" hekayəsi" adlı əsərində məlumat verildiyini bildirmişdir. Nüşabə Araslı isə "XV əsr Azərbaycan şairi Ətainin "Leyli və Məcnun" əsəri" adlı məqaləsində bu barədə daha geniş bəhs etmiş və bəzi faktları dəqiqləşdirmişdir: "Ətai və onun məsnəvisi haqqında ilk dəfə görkəmli türk alimi O.Ş.Gökyay 1937-ci ildə Ülkü dərgisində məlumat vermişdir". Lakin qeyd edək ki, Ətainin poemasının Nizaminin "Leyli və Məcnun" əsərinə çox yaxınlığı, hətta bəzi fəsillərin tərcümə edilməsi qənaəti və əsərin əldə olan nüsxəsinin də naqis olması səbəbindən dolayı Azərbaycan dilində yazılmış ilk "Leyli və Məcnun" kimi daha çox Həqiri Təbrizinin poeması araşdırmaya cəlb edilir. Tədqiqat obyekti olaraq məhz bu iki əsəri götürməyimizin də ən ümdə səbəbi elə budur.

Anadilli "Leyli və Məcnun" müəllifi kimi söz-sənət aləmində yer alan Həqiri Təbrizi də özündən əvvəl bu mövzuda yazan şairləri - Nizami, Xosrov, Hatifini ehtiramla xatırlayır və əlavə edir:

*Şimdi mən biçarə halü natəvan,*
*Acizü sərgəştə, dur əz xaniman.*
*Himmətini onların əzm edərəm,*
*Türk dilincə uş bunu nəzm edərəm.*

Göründüyü kimi, Həqiri burada "Leyli və Məcnun" dastanını məhz türk dilində qələmə alacağını xususi vurğulayır.

Söz sənətkarlarının da ayrı-ayrı məqamlarda qeyd etdikləri kimi, Leylinin eşqi çox vaxt Məcnunun eşqinə bərabər tutulmuşdur. "Demə Məcnuna dəli, bəlkə də Leyla dəlidir" (Ə.Vahid), - misrası təbii ki, təsadüfən deyilməmişdir. Ayrıca, bu obraz xarakter olaraq da diqqətə və öyrənilməyə layiqdir. Biz də məsələyə məhz bu yöndən yanaşmağa, Leylinin xarakterindəki özəl keyfiyyətlərin genetik qaynaqları və xüsusiyyətlərindən, onun açılım məqamları və təzahürlərindən bəhs etməyə çalışacağıq. Bunun üçün hər iki əsəri süjet boyunca izləməyə gərək yoxdur. Çünki bütün "Leyli və Məcnun"larda ayrı-ayrı məqamlarda bu və ya digər dərəcədə fərqlər olsa da, ümumi süjet xətti, ideya demək olar ki, dəyişməz qalır. Həm də bir çox tədqiqatlarda - Xəlil Yusiflinin Həqirinin "Leyli və Məcnun" poemasının ilk nəşrinə yazdığı geniş ön sözdə, Sevinc Mahmudovanın "Həqiri Təbrizi və onun "Leyli və Məcnun" əsəri" dissertasiyasında və s. Nizami və Həqiri "Leyli və Məcnun"larının süjet xəttindəki oxşar və fərqli cəhətlər kifayət qədər geniş izah olunmuşdur.

Bütün bədii əsərlərdə qəhrəmanın xarakteri, onun sözün geniş mənasında "kimliyi" ən ekstremal məqamda, yəni hadisələrin kulminasiya zirvəsində açılır. Bu da təbiidir və real gerçəklikdə də eynilə bu cürdür. Yəni hadisələrin təbii axınında, bu və ya digər kiçik, güclü dəfolma tələb etməyən maneələrdə qəhrəman bir xarakter olaraq böyüyə, ideallaşa bilmir. Məsələn, bir haşiyə çıxaraq deyək ki, Məhcur Şirvaninin "Qisseyi-Şirzad" əsərində Şirzad bir qəhrəman, xarakterik aşiq obrazı kimi Məcnun, Fərhad, Vərqa zirvəsinə yüksələ bilmir. Səbəb aydındır: Şirzadın qarşısında onun "kimliyinin", necə bir daxili gücə və dəyanətə malik olmasının açılması üçün kifayət qədər yetərli maneələr, çətinliklər dayanmır. Odur ki, bədii qəhrəmanın - aşiq və ya məşuqənin öz məqamında bir rəmzə, sədaqət və fədakarlıq simvoluna çevrilməsi, Yaşar Qarayevin sözlərilə desək, "eşqi və vəfanı da həqiqi bir qəhrəmanlıq, kamal və hünər səviyyəsinə qaldıra" bilməsi üçün müəllif onu mütləq elə bir situasiyaya salmalı, elə bir ekstremal şəraitdə təsvir etməlidir ki, obrazın xislətindəki keyfiyyətlər, yəni daxili "mən"i üzə çıxsın və o, bir xarakter olaraq yüksələ bilsin.

"Leyli və Məcnun" əsərində də belə bir məqam, hadisələrin kulminasiya nöqtəsi Leylinin İbn Səlama ərə verilməsi hadisəsidir. İbn Səlama qədər sevgililərin görüşünə mane olan obyektlər onunla müqayisədə çox cılızdırlar və nə qədər qatı, ehkamlaşmış iddialarla bu sevgiyə qarşı çıxsalar da, dəf olunan, keçilə biləndirlər. Lakin o zamankı cəmiyyətin bütün sferalarda Məcnundan üstün hesab etdiyi İbn Səlam real və konkret rəqibdir, əğyardır. Y.Bertels yazır ki, "İbn Səlamla yüngülcə bir toqquşma şairə yalnız onun üçün lazım idi ki, məşuqənin aşiqinə sədaqətini göstərəydi". Həm də qeyd edək ki, bu epizodda təkcə Leyli imtahana çəkilmir, burada Məcnun da, İbn Səlamın özü də sınaqdan keçirilir. (Tofiq Hacıyevin İbn Səlama həsr olunmuş məqaləsində bu obraz çox fərqli və orijinal mövqedən təhlil olunur və hətta Məcnundan daha cəfakeş bir surət kimi təqdim edilir.) Sabir Əliyev bu qarşılaşmadakı incə məqama toxunaraq yazır: "...qəribə də olsa, bu görüşdə sanki iki adam yox, üç adam iştirak edir və imtahan verir: Məcnun, Leyli, İbn Səlam. Bu epizodda Məcnunun məhəbbəti, Leylinin sədaqəti, İbn Səlamın isə bunlara münasibəti imtahana çəkilir".

"Leyli və Məcnun"ların əksəriyyətində bu düyünün həllində Nizami təsiri özünü göstərir. Doğrudur, tədqiqatçılar Nizaminin Leylisinin "özünü müdafiə üsulunu" heç də həmişə təqdir etmirlər: İbn Səlama şillə vurmasını Leyliyə yaraşdırmayan və bu səhnənin oxucunu kifayət qədər inandırmadığını söyləyənlər də var. Bu mülahizələr nə qədər real görünsə də, Nizami yaradıcılığını bütöv halda götürüb məsələyə şairin qadın qəhrəmanlarının ümumi fonunda nəzər salsaq, Leylinin bu cürətinin haradan qaynaqlandığını aydın görmək olar.

Leylidən əvvəl Nizami Şirini, Məhin Banunu yaratmışdı, daha sonra isə Fitnəni, Nüşabəni... Zənnimizcə, Leyliyə məhz bu obrazların fonunda qiymət verilməli, ona məhz Nizami qəhrəmanı kimi, hələ XII əsrdə cəmiyyətdə, həyatın bütün səviyyələrində, istər döyüş meydanında, at çapmaq, qılınc vurmaqda, istər ağıl, zəka savaşında, istərsə də məişətdə, lap elə sevgi münasibətlərində də qadın-kişi hüquqlarının bərabərliyi ideyasını irəli sürən mütəffəkir şairin canlandırdığı obraz olaraq yanaşmaq lazımdır. Nizaminin Leylisinin hünərindən cəsarət alan Həqirinin Leylisi fiziki gücdən istifadə etməsə də, çox cəsarətli bir addım atır: Məcnunu sevdiyini açıq söyləyir.

*Leyli der: - Məcnundan özgə kimsəni*
*Etməzəm həmrah, bilür rəbbi-qəni.*

Hər iki obrazın xarakterindəki bu cəsarət qəhrəman türk ruhundan doğan bir keyfiyyət idi. Bir məqama diqqəti yönəltmək istərdik: Sevinc Mahmudova çox incə mətləbə toxunaraq yazır: "Füzulinin Leylisi... əsl müsəlman aləminin Leylisidir. O, ərinə açıq şəkildə etirazdan çəkinir, qorxur. Lakin ürəyindəki ülvi eşqin gücü onu yalan uydurmağa və quraşdırdığı nağıla İbn Səlamı inandırmağa məcbur edir". Füzulinin Leylisinin yalan danışıb-danışmaması məsələsini bir kənara qoyaq (buna ən yaxşı cavab Sabir Əliyevin "Füzulinin Leylisi" məqaləsidir). Bizə maraqlı olan tədqiqatçının bunu Füzulinin ərəb mühitində yaşaması və bu mühitin təsiri ilə izah etməsidir. (Təbii ki, Füzulinin bu düyünü məhz belə həll etməsinin başlıca səbəbi şairin poemasının sırf sufi-təsəvvüfi əsər olması idi) Sabir Əliyev də bununla Füzulinin "Leyli-Məcnun hekayətinin islam koloritini" qoruduğunu bildirir. Maraqlıdır ki, Nüşabə Araslı yazır: "Onun (Leylinin - T.B.) öz əri İbn Səlamın qarşısındakı cəsarətli rəftarı türk dilində yazılmış bütün "Leyli və Məcnun"larda (kursiv bizimdir - T.B.) (Füzulini istisna etməklə) eynilə təkrar edilmişdir... Türk poemalarında bu motivin təkrar edilməsi isə böyük şairin qabaqcıl ideyalarının türk bədii ədəbiyyatında rəğbətlə davam etdirilməsi deməkdir. Deməli, sonrakı dövrün türk şairləri bir qədər də irəli gedərək Nizaminin Leylisinin cəsarətinə cəsarət qatmışlar.

Qədim türk dastanlarında da əksini gördüyümüz kimi, ta uzaq keçmişdən, hətta islamdan çox-çox əvvəllər belə türk dünyasında qadının yeri, cəmiyyətdəki mövqeyi, qardaşı, atası, əri, oğlu ilə çiyin-çiyinə dayanması bu şairlərin genetik yaddaşından süzülüb gələrək bədii yaradıcılıq məhsullarında əksini tapmışdır. Nizami Leylisinin milli mənsubiyyəti məsələsini araşdıran Pənah Xəlilov hətta Leylinin ailəsindəki münasibətləri də qabardır, bu münasibətlərdə qadına, qıza qarşı duyulan böyük hörmət və ehtiramdan bəhs edir: "Atanın öz qızı və külfəti ilə rəftarında türk dastanlarında rast gəldiyimiz mehriban ailə münasibətlərinə oxşar bir yaxınlıq, bir qədər açıqlıq özünü göstərir. ...bu rəftarın özündə türk məişət münasibətləri, qadına, övlada, qıza türk ailə başçısının şəfqəti qalmaqdadır".

Göründüyü kimi, Nizami başda olmaqla türk sənətkarlarının, o cümlədən də Həqirinin müxtəlif dövrlərdə yaşamalarına, bir-birlərindən neçə yüzillik bir zaman məsafəsində dayanmalarına baxmayaraq, təfəkkürlərindəki mənəvi-ruhi yaxınlıq, başqa dillərdə yazmalarına rəğmən bu və ya digər məqamlarda özünü büruzə verən genetik bağlar, daha dəqiq desək, türk ruhu Leyli (qadın) obrazına yanaşmada özünü xüsusilə göstərir. Tədqiqat nəticəsində əldə olunan əsas qənaət budur ki, ölməz Nizami də, onun layiqli xələfi Həqiri də mövzunu ərəb əfsanəsindən götürsələr də, böyük bəşəri dəyərlərə köklənsələr də, məxsus olduqları xalqın təfəkkürü və genetik yaddaşlarındakı səciyyəvi cizgilər hər iki sənətkarın yaradıcılıq məhsuluna yansımışdır.

***Təhminə BƏDƏLOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***



## ATASININ MƏCNUNA NƏSİHƏTİ

Ata eşitdikcə onun səsini,
Alıb yerə vurdu əmmaməsini.
Bir səhər quşu tək sızladı qəlbən,
Gündüzü gecə tək qaraldı birdən.
Dedi: "Ey gözümün qarası, ağı,
Dağılmaz bir gülün solğun varağı,
Xəyalın yenəmi bir divanədir?
Yanıb külə döndü, bu halın nədir?
Kimin gözü dəydi gül camalına?
De, kimlər qarğadı sənin halına?
Kimlər öz qanını boynuna atdı?
De, kimin tikanı ətəynə batdı?
Sənə nə oldu ki, qaldın işindən?
Düşdü gözlərinə, de, hansı tikən?
Heç aşiq sən kimi bədbəxt olmamış,
Bu qədər dərd çəkib darda qalmamış.
Neçin yorulmadın, usanmadın sən,
Düşmən tənəsindən, qəm qəfəsindən?
Qəlbin doymadımı bu məzəmmətdən?
Neçin dirilmədin bu qiyamətdən?
Oğul, bu sövdanı bir dəfə unut,
Özünə rəhm elə, hörmətimi tut.
Nədir bir eşq üçün bu rüsvayçılıq?
Aləmə göstərmə bu eybi açıq.
Çox gözəl olsa da eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək.
Bu dostluq aynası göstərir ki, sən
Özündən bu eybi kənar edəsən.
Aynanın nə pisi, nə yaxşısı var,
Bu cür xasiyyətlər insanda olar.
Bu dərdi qəlbindən çıxar bir kərə,
Soyuq bir dəmiri döymə boş yerə.
Tutaq ki, ağırdır canan həsrəti,
Qalmamış könlüyün səbri, taqəti
Bari bu həsrəti arabir unut,
Gəl biz tərəfin də əhvalını tut.
Xəyal havasına at çapan olar,
Qaçmaq ayağında piyada qalar.
Bəsdir bu şərabsız, içkisiz məstlik,
Bəsdir bu arzusuz arzupərəstlik.
Oğul, sən xırmanı yelə vermisən,
Bu zalım düşmənə kam olmuşam mən.
Sən adlı, sikkəli istərsən məni,
Boşla dəliliyi, bu pis sikkəni.
Sən sazı döyürsən, mən də dizimi,
Sən paltar cırırsan, mən də üzümü.
Eşqin odlarına yansan belə sən,
Mənim ciyərimdir küllərə dönən.
Umuddan əl üzmə, gəl çarə qılaq,
Göyərmək deyildir danədən uzaq.
Umudsuz bir işdən, səbr etsən əgər,
Bir umud işığı parlaya bilər.
Hər umudsuz işdə bir çox umud var,
Qaranlıq gecədən ağ səhər doğar.
Oğul, səadətin qapısını aç,
Ayağı sürüşkən taleindən qaç.
Çalış, əllərindən çıxmasın dövlət,
Dövlətlə yaranır bütün səadət.
Dövlət, düyümləri açandır bir-bir,
Şahlıq üzüyünün firuzəsidir.
Dünya qapısının açarı hər an
Dövlətin cibində saxlanır, inan.
Sən də səbr eləsən, dayansan əgər,
Tale yavaş-yavaş əlinə gələr.
Dərinlik, sonsuzluq varsa dəryada,
Arxların suyundan yaranmış o da.
Başında bulutlar oynayan hər dağ
Torpaq zərrəsindən qurulmuş ancaq.
Sənin də səbrində qoy olsun qərar,
Gövhəri səbr ilə qazanmaq olar.
Iradəsiz olma, iradəsizlər,
Ayaqsız qurd kimi yerdə sürünər.
Tülkü canavarı edirsə məğbun,
Ondan iradəsi böyükdür bunun.
Səni illər boyu yad etməyənə
Nə üçün könlünü verirsən yenə?
O, şaddır, gül kimi, sən gözü yaşlı,
O, daş ürəklidir, sən başı daşlı.
Kim ki, söhbət açır o qızdan sana,
Səni rüsvay edir, bir ayılsana.
Əqrəb çalmışlara verilsə gərfəs,
Zəhərlə məhv olub kəsilər nəfəs.
Can oğul, başqa bir iş ucundan tut,
Bu sövda işini bilmərrə unut.
Hindli fil başına döyər hər yerdə,
Ki, fil Hindistanı anmasın bir də.
Canımsan, canımdan daha əzizsən,
Evə dön, evimin işığısan sən.
Bu dağda yurd salıb otursan, əgər,
Yalnız üzümüzün suyu tökülər,
Bu yolda daşlıq var, quyu var ancaq,
Bir aç gözlərini, ona yaxşı bax.
Darğa pusqudadır, inad olma bir,
Zəncirə əl vurma, o dəmirdəndir.
Sən yol uşağısan, fitnə yolkəsən,
Qılıncdır başıyın üstündə əsən.
Sən şadlan, kor olsun buna düşmənin,
Gəlsin məclisinə dostların sənin.

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Arzusu general olmaq idi

**Milli soykökünə bağlı olan, mənəvi dəyərlərimizi əməllərində yaşadan oğullarımız 2020-ci ilin sentyabr ayında başlanan Vətən müharibəsində bir daha sübut etdilər ki, Azərbaycan cəsurlar, ərlər-ərənlər diyarıdır. Onlar gözlərini qırpmadan, evini, ailəsini, öz canını düşünmədən döyüşə atıldılar. Yalnız bir amalları vardı - torpaqlarımızı düşməndən azad etmək! Bu amal uğrunda 3 mindən çox igid oğul itirdik. Vətən uğrunda şəhid olan igidlərdən biri də Milli Ordunun zabiti, polkovnik-leytenant Sadiq Sadəddin oğlu Məmmədovdur.**





Sadiq Məmmədov 1981-ci il iyun ayının 23-də sadə bir ailədə dünyaya gəlmişdi. Vaxt çatanda bütün uşaqlar kimi bağçaya, məktəbə gedib. 1998-ci ildə Qax şəhər 2 saylı məktəb-liseydə orta təhsilini tamamlayıb. Elə həmin il ən böyük arzusuna qovuşub - Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olub. Ali Hərbi Məktəbi yüksək qiymətlərlə bitirib və leytenant rütbəsi alıb. Təyinatla Salyanda yerləşən hərbi hissədə xidmətə başlayıb. 22 il şərəflə, ləyaqətlə daşıyıb Milli Ordunun zabiti adını. Xidmət etdiyi illər ərzində dəfələrlə xarici ölkələrdə hərbi kurslarda, təlimlərdə iştirak edib. İsraildə, Çində, Koreyada, Pakistanda, Türkiyədə yeni hərbi silahların tətbiqini, döyüş taktikalarını öyrənib. Milli Ordumuzun nüfuzlu, savadlı, hər zaman öyrənməyə can atan, yeniliyi tez əxz edən zabitlərindən biri olub Sadiq Məmmədov.

Hərbçi olacağına hələ orta məktəbin yuxarı siniflərində oxuyarkən qərar vermişdi. Anasının hələ o illərdən xatirə kimi saxladığı dəftərlərin arxasında yazmışdı: "General Sadiq Məmmədov." Ən böyük arzusu idi Milli Ordunun generalı olmaq...

Səadət xanım göz yaşları ilə dilləndirir Sadiqlə bağlı xatirələrini:

- Sadiq ailəmizin ilki idi. Kasıbçılıqla böyütmüşük övladlarımızı. Tez-tez məktəbə gedərdim. Maraqlanardım dərsləri, davranışları ilə. Hər dəfə də üzüağ qayıdardım. Sinfin gözü olub Sadiq. Orta məktəbi əla və yaxşı qiymətlərlə bitirib Ali Hərbi Məktəbə qəbul olunmuşdu. O illər Sadiqgilə türk hərbçiləri dərs deyirdilər. Bir dəfə atası ilə oraya getmişdik. Hələ də qulaqlarımdadır türk yüzbaşısının dedikləri: "Sizin qarşınızda baş əyirik, belə oğul böyütdüyünüz üçün." Sanki dünyaları mənə bəxş etmişdilər. Oğlum hər kəsin yerini bilən idi. Böyüklə böyük, kiçiklə kiçik olardı. O, mənim təkcə oğlum olmayıb, arxam, dərd ortağım idi. Onunla nəfəs alırdım. Hərbçi anaları məni yaxşı başa düşərlər. Bu, çox çətin peşədir. Onlar vaxtlarının çoxunu xidmətdə keçirirlər. Demək olar ki, bizdən çox Vətənin oğlu olurlar.

Sinəsi dağlı bir atanın fəxarətlə söylədikləri ürəyimi dağa döndərdi:

- Sadiqlə həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm. Sayılan, seçilən olub oğlum. Vaxtından əvvəl mayor, polkovnik-leytenant rütbəsi almışdı. Çox sevərdi peşəsini. Hərbçi olmaq, hərbi qayda-qanunla yaşamaq çətin olsa da, hələ bir dəfə deməmişdi ki, yorulmuşam, bezmişəm. Sadiq öz hərbi paltarını elə qoruyardı, sanki sehrli, qeyri-adi gücü varmış bu geyimin. Hələ bir dəfə də olsun görmədik o, hərbi geyimdə yemək masası arxasına keçsin. Dəfn mərasiminə, dəfndən sonra gələn yoldaşları, əsgərləri onun haqqında o qədər xoş sözlər söylədilər ki... Ata üçün bundan yaxşı nə olardı?! Özündən kiçik silahdaşlarına, əsgərlərinə böyük qardaş kimi həmişə düz yol göstərib Sadiq. Duzlu-məzəli söhbətləri ilə onların qəlbini də fəth edib. Oğlum dronlarla düşmənin canına qorxu salan qorxmaz, igid hərbçi olub. Biz çox sonralar bilmişik ki, o, Aprel döyüşlərində də iştirak edib. Hər dəfə deyərdi ki, mən hərbçiyəm, gec-tez biz torpaqlarımızı azad etməliyik, müharibədə isə hər şey ola bilər. Elə bil bizi hazırlayırdı bir gün alacağımız bu acı xəbərə... Sadiq kimi bir igidin şəhid xəbəri belimizi büksə də, yaşayırıq. Təsəllimiz "Vətən sağ olsun!" kəlməsidir.

Sadiq ailəsinə, övladlarına bağlı olub. İlk övladı, qızı Səbinə deyir:

- Atamı çox sevirdik. Vaxtı olmasa da, bizim istəklərimizi yerinə yetirərdi. Həmişə deyərdi ki, ananıza qulaq asın, dərslərinizi yaxşı öyrənin. Sonuncu dəfə şəhidliyindən bir neçə gün əvvəl danışmışdım atamla. Yenə də "dərslərinizi yaxşı oxuyun, əlavə kitabları çox oxuyun. Ananızı incitməyin" dedi... İnana bilmirəm, bir daha onu görməyəcəyik...

Həyat yoldaşı Pərvanənin söylədikləri Sadiqi gözümüzdə bir ata, bir həyat yoldaşı kimi daha da ucaltdı:

- Bir-birimizi sevərək evlənmişdik... Toyumuza lap az qalırdı. Soruşdum ki, toy günü nə geyinəcəksən? Yeni kostyum almaq lazımdır. Dedi ki, arxayın ol, mən seçmişəm paltarımı. Ağlıma gəlməzdi ki, o, toyuna hərbi geyimdə gələcək. Parad kostyumunu geymişdi. Qoluna girib məclisə daxil olanda qonaqların heyran baxışları gözümdən yayınmadı... Sadiq hər qərarımı hörmətlə qarşılayırdı. Uşaqların tərbiyəsini mənə həvalə etmişdi. Onsuz çətin olsa da, əmanətlərini göz bəbəyim kimi qoruyacam. Atalarının istədiyi kimi böyüyəcək, təhsil alacaqlar. Üç balamı ataların müqəddəs ruhu ilə böyüdürəm...

Sadiq Məmmədov qısa və şərəfli bir ömür yaşadı. Azərbaycan Ordusunun zabiti şərəfini hər şeydən uca tutan polkovnik-leytenantın xidmətləri fəxri fərmanlarla, ordenlərlə, medallarla qiymətləndirilib. Onun sinəsini Azərbaycan Silahlı Qüvvələrinin yubiley medalları, "Qüsursuz xidmətinə görə" 2-ci və 3-cü dərəcəli medallar bəzəyirdi.

Azərbaycan Ordusunun polkovnik-leytenantı Sadiq Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 24-də Xocavənd uğrunda gedən döyüşdə şəhid olub. Doğma Qax şəhərində, Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyü naminə döyüşlərdə igidlik göstərdiyi və hərbi vəzifəsini ləyaqətlə yerinə yetirdiyinə görə Sadiq Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamları ilə "Azərbaycan bayrağı ordeni", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

...Şəhid polkovnik-leytenant Sadiq Məmmədovun iki oğlu - Sənan və Kənan gələcəyin əsgərləridir. Kim bilir, bəlkə bir gün bu oğullardan biri atalarının general olmaq arzusunu gerçəkləşdirəcəkdir. Ataların yolu oğulların yoludur.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru***

# Babək hünərli igid

**Düşmənin yerləşdiyi strateji məkan - Xocavəndin Hadrut qəsəbəsi uğrunda şiddətli döyüşlər gedir...**





Döyüşçü yoldaşları kimi, Babək də var gücü ilə düşmənlə savaşaraq, snayper silahı ilə onları bir-bir "dənləyirdi". Çox keçmədən qəhrəman oğullar bu qədim Azərbaycan yurdunu da işğaldan azad edərək üçrəngli bayrağımızı Hadrutda dalğalandırıb Zəfər sevincinə daha bir fəxarətli səhifə əlavə edirlər...

İşğal altında qalan torpaqlarımızın hər bir qarışı azad edildikcə Babək evlərinə zəng edir, ata-anasına xoş xəbərlər çatdırırdı. Cəbrayıl da, Zəngilan da, Qubadlı da işğaldan qurtulanda yerə-göyə sığmayan sevincini onlarla bölüşürdü.

Bu dəfə də ənənəni pozmamış, Xocavənddə düşmən üzərində qazandıqları qəti qələbədən sonra atasına zəng edərək onu muştuluqlamışdı. Daha sonra düşmən duyuq düşməsin deyə üstüörtülü də olsa, şadlıqla söyləmişdi ki, indi də Şuşanı azad etməyə gedirik. Lakin birdən Süleyman kişi telefonun digər ucunda ani səssizlik hiss etmiş, qısa aradan sonra isə oğlu Babəkin toxtaq səslə və aramla söylədiyi bu son sözlərini eşitmişdi...

- "Ata, oğlunla fəxr elə. Bir də söz ver ki, şəhid olsam, ağlamayacaqsan..."

## 89 düşmən əsgərini "İstiqlal"ı ilə məhv edən cəngavər

1995-ci il noyabrın 27-də Biləsuvar şəhərində anadan olan Babək Süleyman oğlu Mahmudlu ailənin yeganə oğul övladı idi. Hələ kiçik yaşlarından Babəkdə döyüşçü olmaq arzusu oyanmışdı. O, hər zaman Birinci Qarabağ müharibəsində iştirak etmiş qazi atasının şəkillərinə baxır, onun döyüş söhbətlərinə qulaq asır və böyüyəndə özünün də mütləq döyüşçü olacağını söyləyirdi. Bir də hər zaman deyərdi ki, "ata, söz verirəm, bir gün mütləq torpaqlarımızı azad edib, bayrağımızı Şuşada dalğalandıracağıq".

O, 2011-ci ildə Biləsuvar şəhəri Nizami adına 1 saylı tam orta məktəbin 9-cu sinfini başa vuraraq, Sumqayıt Texniki Kollecinə yol hərəkətinin təşkili ixtisası üzrə daxil olur və oranı bitirdikdən sonra hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə keçir. Hərbi xidməti bitirdikdən bir il sonra Babək döyüşçü olmaq arzusunun arxasınca gedərək yenidən hərbi sahəyə üz tutur.

O, Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrində xidmət üçün imtahanlardan uğurla keçərək, müddətdən artıq hərbi qulluqçu kimi Vətənə xidmətini davam etdirir. Manqa komandiri Babək Mahmudlu "İstiqlal" snayper kursunu da müvəffəqiyyətlə başa vurur. Naxçıvanda Türkiyə Cümhuriyyətinin və Azərbaycan Respublikasının keçirdiyi birgə hərbi təlimlərdə snayper atəşi yarışlarında birincilik qazanır.

27 sentyabr 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti təxribat zamanı torpaqlarımızın işğaldan azad olunması uğrunda Naxçıvandan döyüş meydanına könüllü yollanan qəhrəman oğullarımızdan biri də Babək olur.

Babəkin Cəbrayıldan başlayan döyüş yolu Zəngilana, Qubadlıyadək uzanır. Cəsur döyüşçü əfsanəvi polkovnik Tehran Mənsimovun komandanlığı altında həyata keçirilən çətin döyüş əməliyyatlarının iştirakçısı olmaqla, 89 düşmən əsgər və zabitini "İstiqlal"ı ilə məhv edir. Ən böyük arzusu Şuşada bayrağımızı dalğalandırmaq olan peşəkar snayperçi Qarabağın taclı qalası uğrunda çətin döyüşlərə də böyük ruh yüksəkliyi, düşmənə qəzəb hissi ilə qatılır.

Babək Mahmudlu 31 oktyabr 2020-ci ildə Şuşa ətrafında gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olur.

Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycanın igid övladı "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilir.

## Babəkə söz vermişəm, ağlamayacam...

Babək şərəfli döyüş yolu keçir. O və döyüşçü yoldaşları Şuşanı azad etmək üçün kilometrlərlə dağlardan, dərələrdən, meşələrdən keçən çətin yolları qət edirlər. Ağır yüklə sıldırım qayalara dırmaşırlar, addımbaşı düşmən təhlükəsi ilə qarşılaşırlar, amma bütün maneələri dəf edərək qətiyyətlə irəliləyirlər. Hətta onlar Şuşa ətrafında 5 gün mühasirədə qalsalar da, düşmənə sinə gərib bu mühasirəni də uğurla yarıb çıxırlar. Lakin oktyabrın 31-də zirehli maşına oturub irəliləyərkən düşmən raketi ilə vurulurlar və Babək də orada şəhidlik zirvəsinə ucalır.

O, şəhid olanda polkovnik Tehran Mənsimov deyir ki, "mən sağ qolumu itirdim..."

Atası Süleyman kişi oğluna verdiyi sözünü tutur: "Babəklə son dəfə danışdıqdan sonra 6 gün ona zəng çatmadı. Qulağım səsdə idi, televizorun qarşısından çəkilmirdim. Bir gün rayona şəhid gəlmişdi, onu dəfn edirdik, bayrağımızı məzarın üzərinə sərmək istəyəndə gördüm ki, ürəyim möhkəm sancdı. Oradan çıxıb birbaşa evə gəldim. Bu vaxt bir neçə tanışım dalbadal zəng vurub məndən Babəki soruşdular. Ürəyimə nəsə damdı, həyətə çıxdım ki, bütün el-oba qapıya yığılıb...

Demə, oğlumun şəhidliyindən hamının xəbəri var imiş, təkcə mən bilmirmişəm...

Dağ boyda oğul itirən ata bu dərdə necə dözə bilər? Heç cür təsəllim yoxdur. Babək öz yoxluğu ilə sinəmə çalın-çarpaz dağ çəkib, qəlbimi yandırıb, amma ağlamıram, göz yaşlarımı ürəyimə axıdıram, axı balama söz vermişəm..."

## "Ana, haqqını halal et, birdən şəhid olsam, qoy haqqın boynumda qalmasın..."

"1983-cü ildə və 1986-cı ildə Şuşaya sanatoriyaya getmişdim. Şuşanı qarış-qarış gəzmişdim, Cıdır düzündə olmuşdum, Vaqifin məqbərəsinə, Üzeyir bəy Hacıbəylinin ev-muzeyinə baş çəkmişdim. Amma illər əvvəl xoş əhvalla gəzdiyim o torpaqda Babəkin şəhid olması məni yandırıb-tökür", - qəhrəman şəhidimiz Babəkin anası Dürdanə xanım deyir bu sözləri və əlavə edir:

- Babək, döyüş meydanından mənə zəng vuranda deyirdi ki, "ana, haqqını halal et, birdən şəhid olsam, qoy haqqın boynumda qalmasın". Bir də hər zaman deyirdi ki, "ana, söz verirəm, gəlib səni Kərbəla ziyarətinə aparacam..."

O, ömrünün bahar çağında cəbhəyə yollandı. Gənc ürəyindəki bütün istəklərini, niyyətlərini, ana-ata qarşısındakı övlad borclunu, könül yarı ilə bağlı arzularını ertələyərək döyüşlərə atıldı...

O, gələcək bütün arzularını yalnız müharibə bitəndən, torpaqlarımız azadlığına qovuşandan sonra gerçəkləşdirməyi düşünürdü...

Çünki Babək üçün öncə Vətən gəlirdi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dünyanın yeni problemi

## Pandemiya səbəbindən gözləri zəifləyən uşaqların sayı artıb

Hazırda da davam edən COVID-19 pandemiyasının dünyaya təsiri həm də əhali arasında göz xəstəliklərinin artımı ilə bağlı oldu. Artıq bir çox ölkələr insanların, xüsusilə uşaqların görmə problemlərində olan artımı məhz pandemiya ilə əlaqələndirirlər.

Pandemiya dövründə məktəblərin bağlanaraq dərslərin distant formada keçirilməsi, uşaq və gənclərin həmişəkindən daha çox evdə qalaraq elektron cihazların ekranlarına uzun müddət baxması onların görmə qabiliyyətinə xeyli təsir edib.

ABŞ-da aparılan sorğuda iştirak edən valideynlərin 70 faizi pandemiya dövründə övladlarının gündə ən azı 4 saat elektron cihazların ekranlarına baxdığını açıqlayıb. Pandemiya ilə əlaqədar karantin səbəbindən evdə oturan 6-8 yaşlı 120 min uşaqda görmə qabiliyyətini araşdıran Çin mütəxəssisləri də aydınlaşdırıblar ki, uşaqlarda miyopi (uzaqdangörmə qabiliyyətinin azalması) və digər görmə pozuntularına rast gəlmə sıxlığı əvvəlki 5 illə müqayisədə üç dəfə çoxalıb. Onlayn dərs, oyunlar və digər səbəblərdən uşaqların elektron cihazların ekranları qarşısında keçirdikləri vaxt 2,5 saat uzanıb. Bu səbəbdən görmə qabiliyyəti normal olan uşaqlar uzağı zəif görməyə başlayıblar, görmə qabiliyyəti yaxşı olmayan uşaqların isə görməsi daha da pisləşib.

Azərbaycana gəldikdə, ölkədə pandemiyanın əhalinin görmə qabiliyyətinə hansı formada təsir etməsi ilə bağlı hər hansı araşdırma aparılmayıb. Amma son 10 il ərzində qeydə alınan xəstəlik saylarında baş verən artımda pandemiyanın rolunun olması da inkar edilmir. Məsələn, rəsmi rəqəmlərə görə, 2010-cu ildə Azərbaycanda 42604 nəfər göz və gözün əlavə aparatının xəstəliklərindən əziyyət çəkibsə, 2020-ci ildə belə şəxslərin sayı 72471-ə yüksəlib. Onların 30718-i (2010-cu ildə 20773 nəfər) yaşı 18-dək olanlardır ki, həmin uşaqlar arasında da yaşı 13-dək olanların say çoxluğu xüsusi diqqət çəkir. 2010-cu ildə yaşı 13-dək olan 17636, 2020-ci ildə isə 22685 uşaqda göz xəstəlikləri olub.

### Uzağı görməkdən şikayət edənlərin sayı artıb

Miopiya problemi olanlar yaxından görmədə çətinlik çəkmirlər, ancaq uzaqdakı obyektləri bulanıq seçirlər. Miopiyada gözə daxil olan şüalar görməni təmin edən təbəqə sayılan tor qişanın önünə düşür. Bu səbəbdən baxılan obyektlər tor qişada aydın olmur və o, bulanıq görünür. Miopiyanın əsas simptomları gözlərin qıyılması, tez-tez ovuşdurulması, bulanıq görmədir.

Türkiyənin Göz Vəqfi Xəstəxanalarının direktoru Barış Yeniad deyir ki, uşaqlarda bu simptomların olmasına xüsusi diqqət yetirmək lazımdır. Çünki onlar görmə dəyişikliklərinə tez uyğunlaşır və bu dəyişikliklərdən şikayət etməyə bilərlər. B.Yeniad artıq Türkiyədə xəstəxanalara bu şikayətlərlə daxil olanların sayının artdığını söyləyib.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Elmi təşkilat bölməsinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva nəzərə çatdırır ki, Azərbaycanda da miyopiyalı insanların sayı getdikcə artır. Pandemiya səbəbindən insanların telefon, planşet və kompüterlə daha çox təmasda olması miyopiya problemi ilə xəstəxanaya müraciət edənlərin sayının çoxalmasına gətirib çıxarıb. Müraciət edənlərin arasında uşaqlar xüsusilə üstünlük təşkil edirlər. Məktəbyaşlı uşaqlar arasında pandemiyadan əvvəl də müşahidə edilən bu xəstəlik halları indi daha çox artıb.

Miopiyanın inkişafının ən çox məktəb və tələbəlik dövrünə düşdüyünü deyən həkim-oftalmoloq bunu həmin illərdə gözlərin çox gərgin işləməsi ilə izah edir: "Xəstəlik göz almasının forma və ölçüsü dəyişdikdə əmələ gəlir. Göz alması öz normal formasını dəyişərək uzanır, ovallaşır. Nəzərə alaq ki, ətrafımızdakı real əşyalardan və kağız üzərindəki yazılardan fərqli olaraq, monitordakı görüntü ayrı-ayrı işıqlanan və sayrışan nöqtələrdən ibarətdir. Üstəlik, bu qeyri-təbii görüntüyə uyğunlaşan baxışlarımızı tez-tez ekrandan klaviaturaya, sənədlərdəki yazılara və yenə də ekrana yönəldirik. Bu kimi iş rejimi gözlərin artıq yüklənməsi, göz zəifliyinin əmələ gəlməsi və ya artmasına gətirib çıxarır. Beləliklə, görmə qabiliyyətinin pisləşməsi gününü kompüter, telefon qarşısında keçirənlərin ümumi probleminə çevrilir".

Y.Abdıyeva tövsiyə edir ki, miyopiyanın inkişafının qarşısının alınması olduqca vacibdir, çünki bu vəziyyət sonradan katarakt və qlaukoma kimi daha ciddi göz xəstəliklərinə səbəb ola bilər. Miopiyanın artmasının qarşısını almaq üçün eynəkdən (və ya linza) istifadə qaydalarına riayət etmək, həmçinin müntəzəm olaraq görmə qabiliyyətini yoxlatmaq lazımdır. Miopiyası olan uşaqlara bədən tərbiyəsi ilə məşğul olmaq xeyirli hesab edilir. Ancaq bu zaman onları ağır fiziki gərginliyə məruz qoymaq da olmaz. Boks, güləş, ağır atletika kimi idman növləri ilə məşğul olmaq onlar üçün əks-göstəriş hesab edilir.

### Planşet, kompüter təkcə gözlərə deyil, sinir sisteminə də mənfi təsir edir

Kompüter, televizor və planşetdən istifadəyə uşaqların daha çox meyilli olduğunu vurğulayan Y.Abdıyevanın sözlərinə görə, saatlarla televizor, kompüter və planşetdən istifadə etmək onları cihazlardan asılı vəziyyətə salmaqla yanaşı, sosial mühitlə əlaqələrini də zəiflədir.

Texnologiyalara olan bu aludəçilk keçid dövrünü yaşayan yetkinlik yaşlı uşaqlarda özünə qapanmaya, məktəb yoldaşlarına, ətrafındakı başqa insanlara qarşı aqressiv davranışların nümayiş edilməsinə və digər xoşagəlməz hallara gətirib çıxarır. Buna görə istər kompüter və planşetdən, istərsə də televizordan istifadə müəyyən çərçivədə olmalı, uşaqların texnologiyalardan istifadə etməsi, kompüter qarşısında oturması müddətinə nəzarət etmək lazımdır. Araşdırmalara əsasən, 2 yaşına qədər olan uşaqlara televizora, planşetə, kompüterə baxmaq, ümumiyyətlə, məsləhət görülmür. Bu, televizorun, planşetin, kompüterin uşağın yalnız gözlərinə deyil, onun mərkəzi sinir sisteminə də mənfi təsir etməsi ilə (bu sistemin həddindən artıq qıcıqlandırılmasına səbəb ola bilər) əlaqədardır. 3-4 yaşlı uşaqlar kompüter, planşet önündə 25 dəqiqə, 5-6 yaşlı uşaqlar 35 dəqiqə, 7-8 yaşlı uşaqlar isə 40 dəqiqə otura bilərlər. Uzun müddət ərzində televizor verilişlərinə baxmaq, kompüter, planşet arxasında əyləşdikdə gözlər bir nöqtəyə zillənib qalır və nəticədə tənbəlləşir, daha az qırpılır. Bu da gözləri qurudur, qızarma, qaşınma, yaşarma, ağrı kimi problemlər yaradır. Kompüterlə 4-6 saatdan çox təmasda olmaq xüsusilə gözdə problemləri olanlar üçün təhlükəlidir. Uzun müddət ərzində kompüterdən istifadə etdikdə uşağın yalnız gözləri zərər çəkmir, bu zaman onda baş ağrıları, yorğunluq və digər patoloji hallar da baş verir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# ACE layihəsi neft gəlirlərimizi artıracaq

## Layihə eyni zamanda ölkəmizin yaratdığı tərəfdaşlıq formatını yeni müstəviyə qaldırır

2017-ci il sentyabrın 14-də AÇG-nin ("Azəri-Çıraq-Günəşli") birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalandı və bu sənəd "Yeni əsrin müqaviləsi" adını aldı.

Bu sazişə əsasən, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb. Bu o deməkdir ki, növbəti illərdə çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin maddi imkanlarının genişlənməsinə daha bir təkan verəcək.

"Yeni əsrin müqaviləsi" çərçivəsində "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi həyata keçirilir. Hazırda layihə üzrə bir neçə istiqamətdə iş aparılır. AÇG-nin operatoru olan bp şirkətinin məlumatına görə, COVID-19 pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz icra edilir. O cümlədən yeni "Azəri Mərkəzi Şərqi" platforması tikilir.

Xatırladaq ki, AÇG potensialı böyük olan yataqlar blokudur. Xəzərin ölkəmizə məxsus sektorunda, sahildən təxminən 120 kilometr şərqdə yerləşən AÇG yataqları dünyanın ən zəngin neft mənbələrindəndir. "Çıraq"dan artıq 24 ildir neft hasil olunur. 2005-ci ildən "Azəri" yatağı da neft verməyə başlayıb. Qeyd edək ki, "Azəri"nin özü üç hissədən - "Mərkəzi Azəri", "Qərbi Azəri" və "Şərqi Azəri" yataqlarından ibarətdir. Bu da təbiətin Azərbaycana səxavətlə bəxş etdiyi bir sərvətdir. "Günəşli"nin dayaz hissəsi sovet dönəmindən Azərbaycan neftçiləri tərəfindən istismar olunur. Dərinsulu hissəsi isə "Əsrin müqaviləsi"nin tərkibində işlənir. ACE layihəsinin həyata keçirilməsi AÇG yataqlar blokunun işlənməsinin yeni mərhələsidir.

Cari ilin əvvəlindən layihə çərçivəsində işlər xeyli irəliləyib. Qalan iri avadanlıq yüklərinin və irihəcmli materialların əksəriyyəti üçüncü rüb ərzində Bakıya çatdırılıb. Son dörd iri avadanlıq dəstinin gətirilməsi ilin dördüncü rübünə planlaşdırılıb və bununla da layihə üzrə nəzərdə tutulmuş bütün avadanlıq daşımaları başa çatmış olacaq.

ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində aparılır. Bunlar boru xətlərinin dikəldilməsi və hidrosınaqdan, kabellərin çəkilməsindən, üst göyərtənin son panelinin və qazma buruğunun aşağı hissəsinin quraşdırılmasından ibarətdir. Yaşayış modullarının hamısı artıq göyərtənin üzərində quraşdırılıb və bunun ardınca modulların birləşdirilməsi və daxili montaj işlərinə başlanıb. Qazma qurğusunun mexaniki tamamlanması ilə bağlı təhvil işləri plan üzrə irəliləyib və qazma avadanlıqlarının istismar sınaq işlərinə start verilib. İstismar sınaq işləri ilk olaraq əsas dayaq dəsti və qazma dəsti modullarından başlanıb.

Dayaq blokunun tikintisi isə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun (BDÖZ) müxtəlif sahələrində gedir. Mərkəzi dayaq çərçivəsinin yana oturdulması artıq yekunlaşıb, indi dayaq bloku qüllələrinin quraşdırılması işləri aparılır.

Sualtı qurğuların və birləşdirici dirsəklərin tikintisi də tamamlanmaq üzrədir. Dənizdə "Xankəndi" gəmisinin sualtı kəsişmələri qoruma panellərini quraşdırması ilə sualtı quraşdırma işlərinə keçid alınıb. Layihə eləcə də dənizdə aparılan digər quraşdırma işləri ilə də irəliləyir. Bunlara "Şərqi Azəri" platformasında ACE platformasının "Azəri" yatağındakı digər obyektlərdən elektrik enerjisi alması ilə enerji istehsalının optimallaşdırılmasına imkan verəcək işlər daxildir. Son aylarda burada izolyasiyalı qazötürücü və işəsalma modulunun quraşdırılması işləri görülüb.

Bu ilin üçüncü rübünün sonuna ACE layihəsi üzrə işlər ümumilikdə 60 faiz tamamlanıb. Hazırda layihənin icrası üzrə işlər ən yüksək həddədir və bunlara Azərbaycanda, Birləşmiş Krallıqda və Avropanın digər yerlərində 5500 insan cəlb olunub. İşçilərin əksəriyyəti Azərbaycan vətəndaşlarıdır.

Bu ilin noyabr ayında bp qrupunun baş icraçı direktoru Bernard Luni Azərbaycanda səfərdə olarkən keçirilən görüşlərdə "Azəri Mərkəzi Şərqi" layihəsindən də ətraflı söhbət gedib. O cümlədən qeyd edilib ki, layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə əldə edilməsi planlaşdırılır.

Beləliklə, AÇG-dən növbəti illərdə çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin maddi imkanlarının genişlənməsinə daha bir təkan verəcək. Yeni AÇG-nin əsrin ortasınadək ölkəmizə gətirdiyi iqtisadi mənfəətlər maksimuma çatdırılacaq. 2050-ci ilədək bu yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar ARDNF-ə 3,6 milyard dollar bonus ödəyəcəklər. Yeni müqavilənin şərtləri Azərbaycanın və SOCAR-ın son illərdə artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir, ölkəmizin yaratdığı tərəfdaşlıq formatını yeni müstəviyə qaldırır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Almaniyada, nəhayət, "işıqfor" yandı

## Koalisiya hökumətində türkəsilli nazir də olacaq

Almaniyada Bundestaq seçkilərində qalib gələn partiyalar yeni hökumətin formalaşdırılması barədə razılıq əldə ediblər. Yeni kabinet digərlərindən fərqlənəcək. Çünki onu əvvəllər bu tərkibdə federal səviyyədə koalisiyaya daxil olmayan siyasi qüvvələr yaradır.




### Vəzifələr bölüşdürülüb

Almaniya mediası yeni hökuməti alyansdakı partiyaların ənənəvi rənglərinə əsasən "işıqfor" koalisiyası kimi təsvir edib. Bildirilir ki, bunlar sosial-demokratlar (SDP- "qırmızılar"), "İttifaq-90"-"Yaşıllar" və Azad Demokratik (ADP - "sarılar") partiyalarıdır.

Partiyalar arasında əldə olunmuş razılığa əsasən, dekabrın 8-dən gec olmayaraq SDP-nin sədri Olaf Şolts kansler seçiləcək. O, Angela Merkeli əvəz edəcək.

Məlumata görə, 177 səhifəlik sənəddə yeni koalisiya hökuməti yaxın illər ərzində tamamilə kömürdən imtina, 8-10 il ərzində elektromobillərə keçid, miqrantlara 5 ildən sonra vətəndaşlıq (eləcə də ikili vətəndaşlıq) vermək, mənzil böhranının həlli üçün 400 min yeni mənzilin inşası, minimum əməkhaqqının daha da artırılması, marixuananın satışının tənzimlənməsi və leqallaşdırılması, səsvermə hüququnun 16 yaşa endirilməsi və digər məsələlərdə razılığa gəlib.

Razılaşmaya əsasən, SDP federal-kansler vəzifəsini, kansler aparatının rəhbəri, daxili işlər, əmək, müdafiə, səhiyyə, tikinti, iqtisadi inkişaf və əməkdaşlıq nazirliklərini alır.

"Yaşıllar" vitse-kansler, xarici işlər, iqtisadiyyat və iqlim mühafizəsi (keçmiş İqtisadiyyat və energetika), ərzaq və kənd təsərrüfatı nazirləri, ailə məsələləri, pensiyaçılar, qadınlar və gənclər, ətraf mühitin mühafizəsi, nüvə təhlükəsizliyi və istehlakçıların hüquqlarının müdafiəsi, ərzaq və kənd təsərrüfatı üzrə vəzifələri tutacaqlar.

Azad demokratlar maliyyə, ədliyyə, nəqliyyat və rəqəmsal texnologiya, təhsil və tədqiqat nazirliklərini idarə edəcəklər.

KİV-in məlumatına görə, "Yaşıllar" Partiyasının həmsədri Annalena Berbok Xarici İşlər Nazirliyinin rəhbəri, onun ortağı Robert Habek isə İqtisadiyyat Nazirliyinin rəhbəri və vitse-kansler olacaq. Azad Demokratik Partiyasının lideri Kristian Lindner Maliyyə Nazirliyinə rəhbərlik edəcək. Koalisiya razılaşması gələn həftənin sonunda qəti şəkildə təsdiqlənəcək.

### Olaf Şolts: "Daha böyük tərəqqiyə nail olmağa hazırlaşırıq"

Olaf Şolts koalisiya ilə bağlı fikirlərini bölüşüb: "Bizi tərəqqiyə və siyasətlə yaxşı bir şeyə nail ola biləcəyimizə inam birləşdirir. Biz hamımız çalışırıq ki, ölkəmizi daha da yaxşı edək. İstəyirik ki, Almaniya irəliyə getsin və vahid olsun. Biz ətraf mühitin qorunması və iqlim dəyişikliyi, sənayenin yenidən qurulması, ölkənin modernləşdirilməsi və cəmiyyətin birləşməsinin möhkəmləndirilməsi ilə bağlı məsələləri həll etmək niyyətindəyik. Biz daha böyük tərəqqiyə nail olmağa hazırlaşırıq".

Yeni hökumət proqramının əsas bəndlərindən biri iqlim dəyişikliyinə qarşı mübarizədir. 2030-cu ilə qədər ölkədə kömür energetikasından imtina etmək və bərpa olunan mənbələrin istifadəsini genişləndirmək planlaşdırılır. "Yaşıllar"ın həmsədri Robert Habek deyib: "CO2 tullantıları üçün kvota qiymətinin 60 avrodan aşağı düşməməsi o deməkdir ki, kömürdən mərhələli imtina prosesi davam edəcək. İndi isə hesabladıq və gördük ki, razılığa gəldiyimiz koalisiya müqaviləmizlə biz qlobal istiləşməni 1,5 dərəcə çərçivəsində saxlamaqla bağlı qarşımızda duran məqsədin həyata keçirilməsi yolundayıq".

Əsas məqsəd 2045-ci ilə qədər Almaniyanın iqlim neytrallığına nail olmaqdır. ADP-nin lideri Kristian Lindner qeyd edib ki, bağlanmış koalisiya sazişi biznes üçün də faydalıdır: "Biz qarşımıza ambisiyalı məqsəd qoymuşuq - karbon neytrallığına elə keçid etməliyik ki, ölkəmiz əvvəlki kimi çiçəklənsin. Biz iş yerləri saxlamaq və insanlara seçim vermək niyyətindəyik".

### Koalisiyada türk namizəd

"Yaşıllar" Partiyasının sabiq həmsədri türkəsilli Cem Özdəmir Almaniyanın koalisiya hökumətində yeni ərzaq və kənd təsərrüfatı naziri olacaq. Partiyanın mətbuat katibi Şteffi Lemke bu posta mümkün namizəd sayılsa da, rəhbərlik Özdəmiri bu vəzifəyə namizəd kimi irəli sürüb.

Əgər heç bir sürpriz baş verməsə, onda 16 il hökumətə rəhbərlik etmiş kansler Angela Merkel və onun kabinetinin nazirləri artıq Miladdan əvvəl öz vəzifələrinin icrasını dayandıracaqlar. Onun vaxtilə başçılıq etdiyi Xristian-Demokrat İttifaqı Partiyası isə "ana müxalifət" statusunu daşıyacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

---

Deməsək, olmur

# Ticarət həm də mədəniyyətdir

## Elə isə heç bir çərçivəyə sığmayan küçə alveri nədir?

Dünyanın inkişaf edib bu günə gəlib çatmasında ticarətin mühüm rol oynaması danılmaz faktdır. Natural təsərrüfatın dağılması ilə ticarətin təşəkkül tapmasının ölkələr arasında əlaqələrin inkişafına böyük töhfə verməsi, ticarət əlaqələrinin inkişafının dövlətlərin formalaşmasında, əlaqələrin və sərhədlərin yaranmasında müstəsna rol oynaması, zaman keçdikcə isə ölkələr arasında bu əlaqələrin qlobal xarakter alması da məlumdur.


Foto İlham BABAYEVİNDİR

Azərbaycanda da ticarətin tarixi qədimdir. Şərqlə Qərb arasında olan İpək yolunun ticarət marşrutunun üstündə qərarlaşması Azərbaycana hər zaman geniş imkanlar yaradıb. Məhsullarını həm Şərqə, həm də Qərbə satmaq imkanı qazanan Azərbaycanda ticarət mədəniyyəti formalaşıb.

Bəs bu gün Azərbaycanda həmin ticarət mədəniyyəti inkişaf etdirilir demirik, heç olmasa qorunurmu? Bu suala birmənalı cavab vermək mümkün deyil. Ona görə ki, bizdə də, inkişaf etmiş ölkələrdə olduğu kimi, müasir ticarət mərkəzləri, tanınmış brendlərin məxsusi mağazaları və s. fəaliyyət göstərir. Xüsusilə supermarketlərdə məhsulların keyfiyyətinə və gigiyenik qaydalara əməl olunur, nağdsız ödənişlər qəbul olunur, müxtəlif marketinq kampaniyaları həyata keçirilir və s.

Bununla yanaşı, ölkəmizdə hələ də müasir ticarət qaydalarına cavab verməyən ticarət obyektləri mövcuddur. Bəzi kiçik məhəllə dükanlarında vəziyyət fərqlidir. Burada çox vaxt nağdsız ödənişlər həyata keçirmək mümkün olmur, üstəlik, sanitariya qaydalarına da tam əməl edilmir.

Amma bütün bunlar küçə ticarətinin, daha doğrusu, alverinin yanında, necə deyərlər, toya getməlidir. Ümumiyyətlə, küçə ticarəti adlandırdığımız bu antisanitariya və natəmizlik mənbəyi Azərbaycanın, xüsusilə Bakının çoxdankı başağrısıdır. Bir ara qarşısı nisbətən alınsa da, sonradan yenidən "çiçəklənmə"yə başlayan ticarətin bu "növ"ünə azərbaycansayağı "marketinq" də demək olar. Bu gün Bakının mərkəzindən tutmuş ən ucqar ərazilərinəcən elə bir küçəsi, məhəlləsi yoxdur ki, oranı, sözün mənfi mənasında, bazara bənzətmək olmasın. Fotomüxbirimiz bu şəkilləri redaksiyamızın yerləşdiyi binadan iki tin aşağıda - Ələsgər Ələkbərov küçəsində, özü də 5-10 metrlik bir ərazidə çəkmişdir. Burada səkinin ortasında nələr satılmır - meyvə-tərəvəz, təzə balıq, ət, təsərrüfat və sənaye malları... Özü də piyadaların gediş-gəliş yolunu kəsən belə "obyekt"lərin sayı bir deyil, beş deyil. Birindən sivişib keçirsən, başqasının üstünə çıxırsan. Biz hələ elə də təmiz olmayan Bakı küçələrində toz-torpağın, avtomobillərdən çıxan zərərli qazların altında satılan ərzağın insan sağlamlığına yaratdığı təhlükəni demirik, baxmayaraq ki, bu daha ciddi problemdir.

Təhlükə demişkən. Məsələ ilə bağlı Qida Təhlükəsizliyi Agentliyi ilə əlaqə saxlayıb mövqelərini bilmək istədik. Əvvəl cavabları belə oldu ki, icazəsiz küçə ticarətinə qarşı mübarizə polisin işidir. Deyəndə ki, əməkdaşlarınız ərzağın keyfiyyətini yoxlamaq adı ilə restoran və şadlıq evlərindən çıxmır, bəs hər cür yeyinti məhsullarının küçədə satılması təhlükə mənbəyi deyilmi, onda bizdən yazılı sorğu istədilər. Həmin sorğuya da cavabları bu oldu: "Ticarət obyektlərində, eləcə də mövsümi və səyyar ticarət obyektlərində, arabalarda, açıq tərəvəz bazarlarında təzə meyvə-tərəvəz məhsullarının qəbuluna və satışına həmin məhsullar agentlik tərəfindən yoxlanıldıqdan sonra icazə verilir. Meyvə-tərəvəz məhsulları ticarət obyektlərində xüsusi ayrılmış yerlərdə çıxdaş olanlar ayrıldıqdan sonra satışa çıxarılmalıdır. Meyvə-tərəvəz məhsulları rəflərdə, piştaxtalarda, kasetlərdə, zənbillərdə, yeşiklərdə yerləşdirilməlidir. Qanunsuz küçə ticarəti, yəni müvafiq yerli icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə aidiyyəti dövlət orqanı tərəfindən qanun çərçivəsində müvafiq cərimə tətbiq olunur".

Vəssalam. Bu da ölkədə istehsal edilən və satılan qida məhsullarının təhlükəsizliyinə birbaşa cavabdeh olan və məsuliyyət daşıyan dövlət qurumunun hər cür xəstəliklərin mənbəyi olan küçə alverinə münasibəti. Bundan sonra səkiləri işğal etmiş küçə "obyekt"lərinin sahibləri şəhərin avtomobil yollarını da bazaya döndərməyiblərsə, insaflıdırlar. İnsafı olmayanlarsa yolun ortasında təhlükəli ərzaq satışına hansı səbəbdənsə şərait yaratmaqla paytaxtımızın imicinə ziyan vuranlardır. Yəqin ki, onlar ticarətin həm də mədəniyyət olduğunu çoxdan unudublar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

---

# "QARABAĞ" sülhə razılaşdı

## Ağdam klubu qələbəni son dəqiqədə əldən verdi




**Oyun günü Tofiq Bəhramov adına Respublika Stadionunda, həqiqətən, futbol bayramı yaşanırdı. Havanın soyuq və yağmurlu olmasına baxmayaraq tribunalarda boş yer qoymayan azarkeşlər Qarabağı tərənnüm edən şərqilər oxuyur, şüarlar səsləndirirdilər. Bir sözlə, hamı qələbəyə köklənmişdi.**

Lakin azarkeşlərdə buna olan inamı təəssüflər olsun ki, "Qarabağ" gerçəkləşdirə bilmədi. Ağdamlılar qarşılaşmadan qalib ayrılsaydılar, yenidən qrupda liderliyə yüksələrək son turda İsveçrədə "Bazel"lə görüşə əlavə psixoloji üstünlüklə çıxacaqdılar.

Hakimin start fitindən sonra komandamız oyuna sürətli başladı. Lakin topa daha çox sahib olan Qurban Qurbanovun komandası meydançanın 3-cü zonasında rəqibin səddini aşa bilmədi. Xatırladaq ki, qarşılaşmadan əvvəl "Omoniya"nı təhlil edərkən bildirmişdik ki, Ağdam klubu müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə daha çox diqqətli olmalıdır. Elə standart vəziyyətdən sonra penalti vurmaq imkanı əldə edən qonaqlar matçda hesabı açdılar.

Qoldan sonra görüşün yarıdan çoxunu təzyiq altında olan qonaqlar arabir əks-hücumlara keçsələr də, futbolçularımız onlara təhlükəli epizod yaratmağa imkan vermirdi və üstünlük "Qarabağ"da qalırdı. Komandamız fasilədən sonra həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmağa başladı. Künc zərbəsindən sonra avtoqolla hesabda tarazlığı bərpa edən Ağdam klubu ikili mübarizələrdə də Kipr kollektivindən güclü idi. Qapıya uzaqdan vurulan zərbələrdən sonra geri qayıdan topların hamısına "Qarabağ" yiyələndi.

**Avropa Konfrans Liqası**
**H qrupu, 5-ci tur**

"Qarabağ" (Azərbaycan) - "Omoniya" (Kipr) - 2:2
**Qollar:** Dyuriç, 43-pen.(0:1), Psaltis, 49-avtoqol (1:1), Andrade, 88 (2:1), Qomez, 90 (2:2)
**Qırmızı vərəqə:** Kiko, 66 ("Omoniya")
**Baş hakim:** Morten Krox (Danimarka)
**Tofiq Bəhramov adına Respublika Stadionu**

| | Komandalar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Bazel | 5 | 3 | 2 | 0 | 11-6 | 11 |
| 2 | Qarabağ | 5 | 3 | 2 | 0 | 10-5 | 11 |
| 3 | Omoniya | 5 | 0 | 3 | 2 | 5-10 | 3 |
| 4 | Kayrat | 5 | 0 | 1 | 4 | 6-11 | 1 |




Bir sözlə, "Qarabağ" meydançanın bütün zonalarında sona qədər mübarizə aparırdı. Qurulan hücumlardan birində komandamız qol vursa da, görüşün danimarkalı referisi bunu oyundankənar vəziyyətlə əlaqəndirərək hesaba almadı. Halbuki bu epizodun əvvəldən ofsayd olmadığını tribunadan ekranlaradək hamı gördü. Amma yan xətt hakimi görmək istəmədi.

Qarşılaşmanı idarə edən danimarkalı referilərin verdiyi qərar daha ciddi fəsad doğurdu. Belə ki, komandamızın təmiz qolu qeydə alınsaydı, bəlkə də "Omoniya" futbolçuları oyundan daha tez düşəcəkdilər. Bir sözlə, bu qərar Ağdam təmsilçisinin qrupda lideriliyə yüksəlməsini süni şəkildə əngəllədi.

Böyük təəssüf hissi ilə vurğulayaq ki, Azərbaycana qarşı ikili standartlar artıq idmana da tətbiq olunur. Bəlkə də siyasətdə ikili standartları hansısa şəkildə izah etmək olar. Çünki o siyasət gizli mətbəxlərdə hazırlanır və yalnız tətbiq ediləndə xəbər tutulur. Danimarkalı hakimlər briqadasının bu səhvi isə milyonlarla tamaşaçının gözü qarşısında baş verdi.

Bütün bunlara baxmayaraq "Qarabağ" sağ və sol cinahlardan qurduğu hücumların bəhrəsini gördü və Andradenin vurduğu qolla hesabda irəli çıxdı. Qolun sevincini yaşamamış qapıçı Şahruddin Məhəmmədəliyevin kobud səhvi Qurban Qurbanovun komandasına mükəmməl oyununu qələbə ilə tamamlamağa imkan vermədi - 2:2.

Qarşılaşmadan sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandasının çıxışını belə dəyərləndirdi: "Futbolçularımı təbrik edirəm. Qələbə qazanmaq istəyirdik. Futbolçularım bu il çox böyüdülər. Konfrans Liqasında bir oyunumuz qalıb. Bu istəklə həmin matça da hazırlaşacağıq. Futbolçulara heç bir iradım yoxdur. Bütün matçlarda döyüşçü kimi oynadılar. Maraqlı qollar alındı. Son vaxtlar qapıçı daha çox öndə oynayır. Burada Şahruddinin səhvindən çox rəqib oyunçunun ustalığı ön plana çıxdı. Çox yaxşı zərbə vurdu. Əlbəttə ki, daha diqqətli olsaydı, yaxşı olardı. Bu, hakim üçün böyük təcrübə oldu. Gəncdir, avrokubokların qrupunda ilk oyunu idi. Həyəcanlı olduğu hiss olunurdu. Amma biz tərəfə yox, əks tərəfə qarşı hər şey qaydasında idi. Epizodlara baxdıq. Təmiz qol vurduq, təmiz penaltini də vermədi. Az qala iki əllə topla oynadı. Rəqibə qırmızı vərəqə də verilmişdi. Sanki bunu sığortalamaq istəyi var idi".

Qrupun digər matçında isə İsveçrə "Bazel"i səfərdə "Kayrat"a (Qazaxıstan) 3:2 hesabı ilə qalib gəldi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

---


## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 28.10.2021-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən mərkəzi ofisi üçün 2 ədəd 30 kVA gücündə elektrik tənzimləyicisinin və Yevlax və Quba şəhərlərində yerləşən Ərazi İdarələri binalarında istismar olunan UPS avadanlıqları üçün akkumulyatorların və onların quraşdırılması işlərinin satın alınması üzrə açıq tender Tender komissiyasının 25 noyabr 2021-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## "YeloBank" ASC-nin səhmdarlarının nəzərinə

28 dekabr 2021-ci il saat 11:00-da Bakı şəhəri, AZ1122, Həsən bəy Zərdabi küçəsi, 81k ünvanında yerləşən "Yelo Bank" ASC-nin baş ofisində səhmdarların növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. Bankın 2022-ci il üzrə biznes planı;
2. Yığıncağın gündəliyində duran digər məsələlər.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

***"YeloBank" ASC-nin Müşahidə Şurası***

## B İ L D İ R İ Ş

"Bakı Baş Səhiyyə Mərkəzi" publik hüquqi şəxs "21 nömrəli Birləşmiş Şəhər Xəstəxanası" publik hüquqi şəxs və "31 nömrəli Birləşmiş Şəhər Xəstəxanası" publik hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilmişdir.


---

# Dövlət Komissiyası: "Erməniəsilli iki nəfər Ermənistana təhvil verilib"

Azərbaycan Respublikası humanizm prinsiplərini növbəti dəfə əsas tutaraq noyabrın 26-da erməni əsilli iki nəfəri Ermənistan tərəfinə təhvil verib.

Bu barədə AZƏRTAC-a Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib. Həmin şəxslərdən biri 2021-ci il noyabrın 16-da Ermənistanın təxribatları nəticəsində dövlət sərhədində baş vermiş döyüş əməliyyatları zamanı yaralı vəziyyətdə saxlanılan 1993-cü il 3 mart təvəllüdlü Aramyan Arin Jirayeviçdir. Bu müddət ərzində Arin Aramyana zəruri tibbi yardım göstərilərək müalicəsi təşkil edilib. Təhvil verilmiş digər şəxs 2000-ci il 13 sentyabr təvəllüdlü Musaelyan Mihran Ernest Ağdam rayonu istiqamətində Azərbaycan hərbi qulluqçularının xidmət etdiyi əraziyə daxil olarkən saxlanılıb. Aparılmış ilkin araşdırmalar nəticəsində Mihran Musaelyanın mülki şəxs olduğu və yolu azaraq Azərbaycan hərbi qulluqçularının xidmət apardığı əraziyə daxil olduğu müəyyən edilib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2405
Qiymәti 40 qəpik